31 DEKABR DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK VƏ BİRLİK GÜNÜDÜR

52/53 (1255) • 22 dekabr 2022-ci il • 4 yanvar 2023-cü il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

“ÖLKƏMİZ AVROPANIN MÜHÜM ELEKTRİK ENERJİSİ, ƏSASƏN, YAŞIL ENERJİ TƏCHİZATÇISINA ÇEVRİLMƏYİ PLANLAŞDIRIR”

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Buxarestdə “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in imzalanması mərasimi ilə bağlı plenar iclasda deyib.

O, bu mühüm tədbirə dəvət etdiyinə və ev sahibliyinə görə Prezident Yohannisə təşəkkürünü bildirib və deyib: - Bu gün imzalanacaq yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin icrası Avropanın enerji təhlükəsizliyinə verəcəyimiz ümumi töhfə olacaqdır. Bu Saziş yaşıl enerji dəhlizinin yaradılması istiqamətində atılan mühüm addımdır.

Mən Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenə enerji təhlükəsizliyi və şaxələndirilməsi layihələrində Azərbaycana verdiyi davamlı dəstəyinə görə xüsusi minnətdarlığımı vurğulamaq istərdim.

Bu ilin iyulunda xanım Fon der Lyayenin Azərbaycana səfəri zamanı biz Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunu imzaladıq və biz həmin sənədin icrasına artıq başlamışıq. Ötən il Azərbaycanın Avropa İttifaqı bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr təşkil etmişdir, bu il 11,3 milyard kubmetrdir. Növbəti il onun həcmi ən azı 11,6 milyard kubmetr olacaq. Gələn il Azərbaycandan ixrac ediləcək təbii qazın ümumi həcmi təxminən 24 milyard kubmetr olacaq. Müqayisə üçün, 2021-ci ildə o, 19 milyard kubmetr təşkil edirdi.

Dünən Dövlət Neft Şirkəti və Romqaz 2023-cü il yanvarın 1-dən Azərbaycandan Rumıniyaya qazın təchizatı barədə müqavilə imzaladılar. Beləliklə, Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu, hamı üçün uduşlu vəziyyətdir, çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var.

Bu gün biz Avropaya digər enerji körpüsünü salmağa başlayırıq. Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın bərpaolunan enerji potensialına gəldikdə, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Ölkəmizin strateji investorlarının biri ilə biz 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırırıq. Onların 80 faizi ixrac olunacaq. Biz 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırırıq. Beləliklə, yalnız təkcə bir qlobal enerji şirkəti Azərbaycanda 10 qiqavat yaşıl enerjinin istehsalına yatırımlar etməyi planlaşdırır. İki gün əvvəl Azərbaycanın Energetika Nazirliyi digər qlobal enerji şirkəti ilə çərçivə sazişini imzalayıb. Həmin şirkət Azərbaycanda 12 qiqavata qədər külək və günəş enerjisinin istehsalına sərmayə qoymağı planlaşdırır. Beləliklə, Azərbaycan ixracının birinci mərhələsində ən azı 3 qiqavatlıq əlavə ötürmə gücü yaradılacaqdır.

Məqsədlərimizə nail olmaq üçün biz səmərəli surətdə çalışmalıyıq. Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniya Avropa İttifaqı ilə sıx əməkdaşlıq və əlaqələndirmə şəraitində bir komanda kimi işləməlidirlər. Mən hamımıza uğurlar arzulayıram.

AVROPANIN ENERJİ TƏMİNATI YAŞIL ENERJİ MƏNBƏLƏRİ HESABINA HƏYATA KEÇİRİLƏCƏK



Dekabrın 17-də Buxarestdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniya Prezidenti Klaus Yohannis ilə görüşü olub.

Görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğu qeyd edilib, yüksək səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin əhəmiyyəti vurğulanıb. Hər iki ölkənin müvafiq qurumları arasında sıx əməkdaşlığın həyata keçirildiyi bildirilib.

Söhbət zamanı “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in imzalanmasının əhəmiyyəti qeyd olunub, bu tədbirin Avropanın enerji təhlükəsizliyinə töhfə verdiyi bildirilib.Xüsusilə Avropanın enerji təminatının yaşıl enerji mənbələri hesabına həyata keçirilməsinin əhəmiyyəti vurğulanıb və bu işə Azərbaycanın mühüm töhfəsi qeyd olunub.

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ÖLKƏMİZDƏ İŞGÜZAR SƏFƏRDƏDİR

Dekabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə işgüzar səfərə gələn Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü olub.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər.

TURİZMİN İNKİŞAFI QEYRİ-NEFT SEKTORUNUN APARICI SAHƏSİ KİMİ BAŞLICA PRİORİTETLƏRDƏNDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 19-da paytaxtda “The Ritz-Carlton Baku” otelinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım oteldə yaradılan şəraitlə tanış olublar.

Məlumat verilib ki, hündürlüyü 130 metr olan otel binası 33 mərtəbəlidir. “The Ritz-Carlton Baku” otelində 190 geniş qonaq otaqları, lüks mənzillər, restoranlar, fitnes və biznes mərkəzləri, müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı yaradılıb. Binanın 14 mərtəbəsi otel otaqları üçün nəzərdə tutulub, 15-ci mərtəbədən başlayaraq yuxarı hissədə isə rezidensiyalar və mənzillər yerləşir.

Qeyd edilib ki, binada korporativ toplantıların və xüsusi günlərlə bağlı tədbirlərin təşkili üçün də ideal şərait yaradılıb. Buradakı “Şuşa” zalı işgüzar görüş və ya qala tədbirlərin keçirilməsi baxımından xüsusi məkandır.

Bununla yanaşı, oteldə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin adlarını daşıyan 12 əlavə iclas otağı yaradılıb. Bunlar “Qarabağ”, “Ağdam”, “Cəbrayıl”, “Qubadlı”, “Tərtər”, “Xocalı”, “Füzuli”, “Zəngilan”, “Kəlbəcər”, “Xankəndi”, “Xocavənd” və “Laçın” otaqlarıdır.

Qeyd edək ki, Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi turizmin inkişafı başlıca prioritetlərdəndir. Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi” bu sahəyə dövlət tərəfindən göstərilən diqqətin əyani təsdiqidir.

AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

Azərbaycan Ermənistanla bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etdi

Azərbaycan hökuməti işğaldan azad edilmiş ərazilərdə azərbaycanlıların insan hüquqlarının kobud şəkildə pozulmasına görə Ermənistana qarşı Avropa İnsan Hüquqları Məhkəməsinə (AİHM) müraciət edib.

Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan 2022-ci ilin may-avqust aylarında Ermənistanın Laçın şəhərini və iki qonşu kəndi tərk etməsi zamanı əmlakın, o cümlədən yüzlərlə mülki evin və digər yaşayış sahələrinin qəsdən və məqsədyönlü şəkildə dağıdılmasına dair bir sıra sübutlar təqdim edib.

Sözügedən ərazilərdə effektiv nəzarəti həyata keçirməsinə baxmayaraq, Ermənistan hökuməti bu genişmiqyaslı dağıntıların qarşısını almaq üçün heç bir addım atmayıb. Azərbaycan tərəfi, həmçinin Ermənistan rəsmilərinin "yandırılmış torpaq" siyasətində fəal iştirak etdiyinə dair sübutların da şahidi olub.

Ermənistan hökuməti Laçın yolunda sistematik insan hüquqları pozuntuları törədib. Yenicə aşkar olunmuş dəlillər göstərir ki, Ermənistan silahlı qüvvələri 2020-ci il 10 noyabr tarixli Üçtərəfli Bəyanata əsasən tərk etməli olduqları ərazilərdə minalar, habelə mülki evlərdə mina tələləri yerləşdirməyə davam edir. Buna Üçtərəfli Bəyanatın birmənalı pozuntusu olaraq Ermənistanda 2021-ci ildə istehsal olunmuş və Laçın yolu vasitəsilə Azərbaycana gətirilmiş minalar daxildir.

Ermənistanın "yandırılmış torpaq" siyasəti çərçivəsində evlərin dağıdılması, qəsdən və spesifik olaraq mülki əmlaklarda partlayıcı qurğuların yerləşdirilməsi məcburi köçkün ailələrinin və icmaların 30 il bundan əvvəl Ermənistanın qeyri-qanuni işğalı nəticəsində tərk edilmiş keçmiş evi və torpaqlara qayıtmasının qarşısını alır.

Ermənistan hökumətinin hərəkətləri azərbaycanlıların şəxsi və ailə həyatı, hərəkət azadlığı, mülk və əmlakdan dinc istifadə hüququnun pozulmasıdır. Ermənistan hökumətinin hərəkətsizlik və yardım siyasəti ayrı-seçkiliyin qadağasının, eyni zamanda, münaqişənin başlamasından sonra Azərbaycanın müvəqqəti tədbirlər üçün müraciəti ilə bağlı Ermənistanın mülki əraziləri hədəf almasına mane olan AİHM-in 2020-ci ildə qəbul etdiyi müvəqqəti tədbirlərin pozulması deməkdir.

Azərbaycan insan hüquqlarının kobud şəkildə pozulması nəticəsində dəymiş ziyana görə kompensasiya, reparasiya, restitusiya, digər xərclərin qarşılanmasını tələb edir.

Azərbaycan beynəlxalq insan hüquqlarının davamlı və məqsədyönlü şəkildə pozulmasına görə Ermənistan hökumətinin məsuliyyətə cəlb edilməsi üçün səylərini davam etdirəcək.

"Fransa bilməlidir ki, bu gün qarşılarında fərqli Azərbaycan var"

Bu sözləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov parlamentin dekabrın 20-də keçirilən plenar iclasında çıxışı zamanı deyib.

"Hər zaman Fransanın Azərbaycana qarşı ikili standartlarla, subyektiv yanaşmalarla, ağlasığmaz iddialarla çıxış etdiyini müşahidə edirik. Onlar bilməlidirlər ki, bu gün artıq qarşılarında fərqli Azərbaycan var", - o, vurğulayıb.

Komitə sədri bildirib ki, işğalda olan torpaqlarını azad etmiş, ərazi bütövlüyünü bərpa etmiş, güclü təsiri olan və dünya üçün lazımlı Azərbaycan var: **"Bu gün Azərbaycanla mübarizə aparan Fransa bilməlidir ki, sözümüzü deyəcəyik, mübarizə aparacağıq, qeyri-qanuni addımlara uca səsimizi qaldıracağıq".**

"Heç kimin ixtiyarı yoxdur ki, ümumbəşəri dəyərləri özəlləşdirib demokratiya haqqında söhbət aparsın. Təəssüf ki, Azərbaycana bu isitiqamətdə dırnaqarası dərs demək istəyən Fransa öz içərisində bu dəyərləri pozub.

Nəinki pozub, elementar insan haqları, demokratik normaların, eləcə də qanunun bütün hədlərini aşan Fransa bu gün Korsikada insanlığa qarşı siyasət aparır.

Günahsız insanları silah gücünə həbslərdə öldürür, ağlasığmaz işgəncələr verir" – S.Seyidov bildirib.

Qarabağdakı mina təhlükəsi GUAM-ın iclasında müzakirə edildi

Dekabrın 20-də Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat – GUAM-ın xarici işlər nazirləri Şurasının videokonfrans formatında 40-cı iclası keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, GUAM-ın fəaliyyətdə olan sədri, Moldovanın xarici işlər naziri Nikolae Popeskunun sədrliyi ilə keçirilən iclasda Azərbaycan Respublikasının Xarici İşlər nazirinin müavini Elnur Məmmədov iştirak edib.

İclasda Gürcüstanı Xarici İşlər naziri İlia Darçiaşvili, Ukraynanı Xarici İşlər naziri Dmitri Kuleba təmsil edib.

İclasda çıxış edən xarici işlər nazirinin müavini Elnur Məmmədov GUAM çərçivəsində nəqliyyat, kommunikasiya, ticarət sahəsində həyata keçirilən layihələrin əhəmiyyətindən, parlamentlərarası əməkdaşlıq platforması çərçivəsində əməkdaşlıq əlaqələrindən bəhs edib. Nazir müavini tədbir iştirakçılarına Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işləri, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlar barədə məlumat verib.

İclasın yekununda hazırkı iclasın protokolu və 2 qərar qəbul olunub, sədrlik Ukraynaya təhvil verilib.

Milli Məclis bəzi məhsulların gömrük rüsumundan azad edilməsi müddətini uzadır

Azərbaycanda sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslərin idxal etdiyi məhsulların gömrük rüsumundan azad edilməsi müddəti uzadılır.

Bu barədə məsələ Milli Məclisin plenar iclasında müzakirə edilən "Gömrük tarifi haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb. Qanun layihəsi sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq qaydada idxal edilən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalının gömrük rüsumlarından azad olma müddətinin həmin rezidentin qeyd olunan parklarda qeydiyyata alındığı tarixdən 3 il artırılaraq 10 il müəyyən edilməsi məqsədilə hazırlanıb. Müzakirələrdən sonra dəyişiklik səsverməyə qoyularaq 1-ci oxunuşda qəbul edilib.

Gömrük Komitəsi: "Qırmızı dəhliz" üzrə keçidlər 10 dəfə azalıb

"Gömrük bəyannamələrinin risk dəhlizləri üzrə dinamikasına baxdıqda görürük ki, "Qırmızı dəhliz" üzrə keçidlər 10 dəfə azalıb". Bu sözləri Dövlət Gömrük Komitəsinin katibliyinin rəisi Əsgər Məmmədov "Gömrük islahatları: çağırışlar və imkanlar" mövzusunda keçirilən ictimai müzakirələrdə deyib.

O bildirib ki, ötən ilə nisbətən "Qırmızı dəhliz" üzrə keçidlər 70 faizdən 7 faizə düşüb. "Yaşıl dəhliz" üzrə 22 faizdən 36 faizə, "Sarı dəhliz" üzrə isə 8 faizdən 57 faizədək artıb.

Sahibkarlar xarab olan məhsullarla bağlı geri ödəmələrdə çətinliklərlə üzləşirlər

"Azərbaycanda idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydalarına əsasən sahibkarlar konsiqnasiya yolu ilə ixrac etdikləri malların müqabilində vəsaitlərin onların bəyan olunduğu gündən müvafiq müddətə Azərbaycandakı müvəkkil bankda olan hesablarına köçürülməsini təmin etməlidirlər. Lakin bəzi hallarda sahibkarlar qida məhsulları, əsasən meyvə-tərəvəz ixrac etdikdən sonra xarab olan məhsullara dair sənəd təqdim edə bilməmələrinə görə bəyan olunan dəyərin bir qisminin geri ödənilməsində bəzi çətinliklərlə rastlaşırlar".

Bu sözləri KOBİA-nın sədri Orxan Məmmədov "Gömrük islahatları: çağırışlar və imkanlar" mövzusunda keçirilən ictimai müzakirələrdə deyib.

O bildirib ki, bu sahədə tənzimləyici mexanizmlərin tətbiqi məqsədilə beynəlxalq təcrübədə təklif edilən mütərəqqi təcrübələrə baxmaq daha yaxşı olardı.

Orxan Məmmədov qeyd edib ki, daxil olmuş müraciətlərə əsasən, digər bir çətinlik isə statistik dəyərin müəyyən olunmasında yaşanır. Belə ki, bəzi hallarda həm idxal, həm də ixrac edilən məhsullara münasibətdə faktiki qiymətdən yüksək qiymətlər tətbiq edilir və bu vəziyyət əlavə olaraq vergi orqanları ilə də mübahisələrin yaranmasına səbəb olur. Bununla əlaqədar statistik dəyərin təyin edilməsi zamanı mövcud hallar təhlil edilməklə beynəlxalq təcrübəyə əsaslanan sadələşdirilmiş alətlərdən istifadə imkanlarını nəzərdən keçirmək olar.

"KOB-ların gömrük xidmətlərinə çıxışının sadələşdirilməsi məsələsi də diqqətçəkən mövzulardandır. Təklif olaraq sahibkarlara nisbətən KOB subyektlərinin "Yaşıl dəhliz" xidmətindən istifadəsinin daha əlçatan olması və təşviq edilməsi üçün prosedurlara yenidən baxılmasına ehtiyacın olduğunu düşünürəm", - deyə Orxan Məmmədov vurğulayıb.

“BÖYÜK QAYIDIŞ” PROQRAMI MÜSTƏQİL AZƏRBAYCANIN ƏBƏDİ YÜKSƏLİŞİNİN TƏCƏSSÜMÜDÜR

“2003-cü ildən - Prezident vəzifəsinə ilk dəfə seçiləndən bu günə qədər xalqın dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək iradəmi möhkəmləndirir. Bu dəstək nəticəsində biz hamımız – bütün Azərbaycan xalqı böyük tarixi uğurlara imza atmışıq”.

Prezident İlham ƏLİYEV

Bu gün yeni reallıqlar qarşıya qoyulmuş strateji hədəflərin gerçəkləşməsini diktə edir. Azərbaycan Prezidentinin 2022-ci il 22 iyun tarixli “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda əksini tapmış “İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış” Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə dövlət başçısının 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” təsdiq edilmişdir. Bu proqramda mütərəqqi beynəlxalq təcrübə, qlobal iqtisadiyyatda müasir çağırışlar, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı nəzərə alınmışdır. I Dövlət Proqramının əhatə dairəsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir.

Müsahibimiz akademik Ziyad Səmədzadədir.

- Ziyad müəllim, Azərbaycan xalqının tarix salnaməsinə əbədi həkk olunan Zəfər Günündən iki ildən artıq vaxt keçir. 30 il düşmən tapdağı altında qalan yurd yerlərimizin üstündən qara buludlar çəkilib, çəmənliklərin üzü gülüb, çiçəklərin ətri, rayihəsi özünə qayıdıb, meşələrin, çayların, çeşmələrin ahəngi, dağların vüqarı dəyişib. Bir tərəfdən də, tikinti-quruculuq işləri böyük vüsət alıb. Bizlər üçün bundan xoşbəxt aylar, illər olarmı?

- İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevi ad günü münasibətilə təbrik dir, ona möhkəm cansağlığı arzulayır, doğma vətənimizin çiçəklənməsi naminə apardığı işlərdə uğurlar diləyirəm. Vətən müharibəsini qələbə ilə başa vuran Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Bu zəfər xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi oldu, tarixə milli qürurumuzun təntənəsi kimi həkk olundu. 44 gün davam edən döyüşlər və qazanılan möhtəşəm qələbə Prezident İlham Əliyevin yenilməz qətiyyətini, Ali Baş Komandanı olduğu ordumuzun qüdrətini və xalqımızın milli birliyini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan Ordusu torpaqlarımızı azad etdikcə bütün dünya erməni vəhşiliyinin şahidi oldu. Kənd və şəhərlərimizin 30 il davam edən işğalı dövründə dağıdılması hər birimizi göynətdi. İşğaldan azad edilmiş bütün ərazilərimiz erməni vandallığının qurbanı olub, şəhər və kəndlərimiz viran qoyulub, xalqımıza və dövlətimizə qarşı cinayət törədilib. Ağdam, Cəbrayıl, Füzuli şəhərlərindən, azad olunan rayonların demək olar ki, əksər kəndlərindən əsər-əlamət qalmayıb. Tarixi abidələrimizə, milli-mədəni irsimizə, mənəvi dəyərlərimizə, təbiətimizə qəsd edilib.

Prezident İlham Əliyev işğaldan azad olunmuş rayonlara ilk səfəri zamanı bu barədə ürəkağrısı ilə söz açaraq bu torpaqlardan sanki bir vəhşi qəbilənin keçdiyini bildirdi: *“…Yol boyunca dağıdılmış kəndləri və Füzuli şəhərini dağılmış vəziyyətdə görəndə adamın ürəyi ağrıyır. Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Dağıdıblar, evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib”.*

Cəbrayıla, Füzuliyə, Zəngilana, Qubadlıya, Ağdama doğru uzanan yollarda Mehriban Əliyevanın etdiyi çəkilişlər bu həqiqətləri bütün dünyaya nümayiş etdirdi. Bəli, biz işğalçı, terrorçu düşmənlə yox, həm də vandallarla, vəhşilərlə üzüzə qalmışdıq. Tarixdən də bəllidir, bütün müharibələr zamanı yaşayış məskənlərini, maddi mədəniyyət nümunələrini dağıdanlar yalnız və yalnız mədəni inkişafdan geri qalan, yırtıcı şüur və təfəkkürə malik barbarlar olublar.

İşğal olunmuş torpaqların azad olunması uğrunda savaşdan qalib çıxan Azərbaycan dövlətinin qarşısındakı ilk missiya otuz ilə yaxın erməni vandallarının vəhşilikləri nəticəsində dağıdılmış ərazilərimizin yenidən qurulması və bərpasıdır. Çünki illərdir ki, doğma el-oba nisgili ilə yaşayan keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdacaqları günü səbirsizliklə gözləyirlər.

Heç təsadüfi deyildir ki, tarixi Zəfərdən sonra Prezident İlham Əliyev tərəfindən Qarabağın və Şərqi Zəngəzurun bərpası və dirçəlişi milli prioritet elan edilib. Bundan irəli gələrək Azərbaycan hökuməti azad olunmuş ərazilərin bərpası və yol-nəqliyyat, sosial və istehsal infrastrukturunun yaradılması strateji məqsəd kimi müəyyən olunub. Qarabağın və Şərqi Zəngəzurun kənd və şəhərlərinin yenidən qurulması, insanların öz doğma yurdlarına qayıdışı, burada məşğulluğun təmin edilməsi və yeni istehsal sahələrinin yaradılması üçün, ilk növbədə tələblərə cavab verən infrastruktur mövcud olmalıdır.

Sosial-iqtisadi inkişafı və yüksəlişi şərtləndirən əsas amillərdən biri hər bir sahə üzrə mükəmməl infrastrukturun yaradılmasıdır. Cənab Prezident İlham Əliyev davamlı yüksəlişin, tərəqqinin yolunu digər amillərlə yanaşı, infrastrukturun müasirləşməsində, bu sahədə beynəlxalq standartların tətbiqində görür. Təsadüfi deyil ki, 2004-cü ildən sonra regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları təsdiq olunarkən qarşıya qoyulan prioritet vəzifələrdən biri infrastrukturun bərpası və yeniləşdirilməsi olmuşdur.

- “Böyük Qayıdış” Dövlət Proqramında önə çıxarılan mühüm vəzifələrdən biri işğal edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı infrastrukturun və əhalinin yüksək həyat səviyyəsinin təmin olunması üçün zəruri tədbirlərin görülməsidir. Bu xüsusda kəndləri, şəhərləri, yaşayış məntəqələrini, Naxçıvan MR-i bir-biri ilə bağlayan avtomobil yolları və dəmiryol şəbəkəsinin tikintisi böyük önəm daşıyır. Çox mürəkkəb relyefdə aparılan və böyük maliyyə vəsaiti tələb edən yol-nəqliyyat-logistika layihələrinin reallaşması prosesi barədə nə demək istərdiniz?

- 2020-ci ilin oktyabr-noyabr aylarından başlayaraq Qarabağ və Şərqi Zəngəzurda başlanan bərpa və yenidənqurma işləri, ilk növbədə infrastruktur sahələrini əhatə etdi. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə yol-nəqliyyat, enerji və su infrastrukturunun bərpası paralel şəkildə həyata keçirilir.

Qarabağın dirçəlişinə aparan “Böyük Qayıdış” proqramının əsas mərhələlərindən biri də işğaldan azad olunmuş ərazilərdə yeni yol-nəqliyyat infrastrukturunun yaradılmasıdır. Çünki yol inkişaf deməkdir və yollar olmadan heç bir şəhərin və rayonun, kənd və qəsəbənin bərpasını və gələcəkdə sosial iqtisadi inkişafını təmin etmək mümkün deyil. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpaolunan və yeni salınan avtomobil yollarının uzunluğu 700 kilometrə yaxındır. Əsas məqamlardan biri odur ki, indi işğaldan azad olunmuş ərazilərdə hətta sovet dövründə olmamış marşrutlarda yeni yollar salınır.

Müasir qloballaşma dövründə hər bir dövlətin iqtisadi potensialı, gücü və qüdrəti həm də onun malik olduğu nəqliyyat-kommunikasiya kompleksinin inkişaf səviyyəsi ilə ölçülür. Geniş və çoxşaxəli, mükəmməl infrastruktura malik, dövrün tələblərinə cavab verən avtomobil yolları şəbəkəsinə malik olmayan hansısa dövlətin dinamik inkişafından söz açmaq qeyri-mümkündür. Bu reallığı düzgün dəyərləndirən Azərbaycan Prezidenti İlham Əliyev respublikanın əlverişli geostrateji mövqeyini, eləcə də beynəlxalq əhəmiyyətli magistral xətlərin kəsişdiyi əlverişli coğrafi məkanda yerləşdiyini nəzərə alaraq, işğaldan azad olunmuş ərazilərdə yol-nəqliyyat sisteminin tamamilə yenidən qurulmasını və yeni yaranmış Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının respublikamızın nəqliyyat sisteminə qovuşmasını iqtisadi inkişaf strategiyasının mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir.

Azərbaycanda avtomobil yolları şəbəkəsinin əsaslı təmiri, bərpası və yenidənqurulması istiqamətində həyata keçirilən kompleks tədbirlər bütövlükdə respublikamızın artan iqtisadi imkanları ilə şərtlənir. Respublikamızda ötən 18 ildəuğurla gerçəkləşdirilən sosial-iqtisadi inkişaf strategiyasının səmərəli nəticəsi, büdcə vəsaitlərinin ildən-ilə artması ölkə rəhbərliyinə bu sahədə bir sıra vacib problemlərin həlli istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirməyə imkan vermişdir.

(davamı 6-cı səhifədə)



Şuşa-Laçın yolundakı aksiya ilə bağlı xarici ölkə parlamentlərinə məktublar ünvanlandı

Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qrupları, o cümlədən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi tərəfindən xarici ölkə parlamentlərindəki həmkarlarına Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin və ekologiya fəallarının həyata keçirdiyi etiraz aksiyası ilə bağlı məktublar ünvanlanıb.

Bu barədə parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Məktublarda Ermənistan tərəfindən Azərbaycanın Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərindəki təbii sərvətlərin qanunsuz şəkildə istismar edilərək, Laçın yolu vasitəsilə Ermənistana daşınmasına, Azərbaycanın aidiyyəti dövlət qurumları nümayəndələrinin faydalı qazıntı yataqlarının yerləşdiyi ərazilərə səfərinin əngəllənməsinə cavab olaraq, Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri və ekologiya fəallarının Şuşa-Laçın yolunda etiraz aksiyasına başladıqları bildirilib.

Ermənistan tərəfinin iddialarının tamamilə əsassız olduğu vurğulanaraq, Laçın yolundakı məhdudiyyətlərin azərbaycanlı etirazçılar tərəfindən deyil, Rusiya sülhməramlı kontingenti tərəfindən yaradıldığı, etiraz aksiyasının məqsədinin yolun bağlanması deyil, talan edilmiş təbii sərvətlərin qanunsuz daşınmasının qarşısının alınması olduğu, mülki təyinatlı nəqliyyat vasitələrinin hərəkətinə heç bir maneə törədilmədiyi qeyd edilib.

Məktublarda həmçinin Ermənistanın 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatı kobud şəkildə pozaraq, Laçın yolundan hərbi məqsədlər, minaların və talan olunan təbii sərvətlərin daşınması üçün istifadə etdiyi, bununla da Praqa və Soçi görüşlərində Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət edilməsi üzrə qəbul etdiyi öhdəliklərə zidd olaraq, qanunsuz fəaliyyətlərini davam etdirdiyi diqqətə çatdırılıb. Ermənistanın bu cür qanunsuz fəaliyyətləri ilə bağlı obyektiv məlumatlandırmanın zəruriliyi xüsusilə vurğulanıb.

Ermənilərin ərazilərimizdəki talanına, qarətinə son qoyulmalıdır

Şuşadakı aksiya vətəndaşlarımızın, ekofəalların haqlı etirazıdır. Çünki illər ərzində Azərbaycanın faydalı ehtiyatları ermənilər tərəfindən talanaraq xarici ölkələrə satılıb və bunun müqabilində onlar külli miqdarda gəlir əldə ediblər. İndi Qarabağa göndərilən Ruben Vardanyanın da məqsədi budur: Azərbaycanın təbii sərvətlərini talan etmək və ətraf mühitə ciddi ziyan vurmaq. Buna göz yumulması isə yolverilməzdir.

Ermənilərin Azərbaycan ərazilərində həyata keçirdikləri talana, qarətə son qoyulmalı, ekoloji terrora dur deyilməlidir. Bu baxımdan Laçın yolunda etirazçıların irəli sürdükləri haqlı tələblər yerinə yetirilməlidir. Azərbaycanlı mütəxəssislər öz ərazilərimizdəki mədənlərdə rahat şəkildə monitorinqlər aparmalı, buna görə onlara heç kim maneə yaratmamalıdır. Bunun üçün isə Rusiya sülhməramlıları prosesin qarşısını almamalı, talançılara kömək etməməlidirlər.

Bütün dünya bilməlidir ki, Azərbaycanın təbii sərvətləri əraziyə gəlmir. Şuşa-Laçın

işğal dövründə ermənilər tərəfindən qeyri-qanuni şəkildə istismar olunub və daşınıb. Təbii ki, bu işdə onların havadarlarının da rolu olub. Eyni zamanda xarici şirkətlər də qanunsuz əməllərdən çəkinməyiblər.

Aksiya artıq bir həftədir davam etsə də, sülhməramlı kontingentin komandanı tələb edilən əraziyə gəlmir. Şuşa-Laçın yolunda gecələyən etirazçılar tələblərini səsləndirməklə yanaşı, fləşmob da təşkil ediblər. Belə ki, aksiya iştirakçıları yanan şamlarla "Stop ekoterror" şüarı yazıblar.

Monitorinq keçirilməsinə şərait yaradılmır

Məlumat üçün bildirək ki, dekabrın 16-da da Rusiya sülhməramlıları monitorinq qrupunun yataqlara yerində baxış keçirməsinə növbəti dəfə mane olub. İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak məsələləri dövlət xidməti və "Azergold" QSC-in nümayəndələrindən ibarət heyət Rusiya sülhməramlılarının qərargahında görüş keçirib. Görüşdə bir daha qeyd olunub ki, təqdim edilmiş yol xəritəsinə uyğun olaraq "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarına yerində baxış həyata keçirilməli, müvafiq monitorinq və inventarizasiya işlərinin təşkili məsələləri həllini tapmalıdır. Monitorinq qrupunun yataqlara yerində baxış keçirməsinə növbəti dəfə lazımi şərait yaradılmayıb və qarşıya qoyulan vəzifələrin icrasına nail olunmayıb.

Qrup üzvləri tərəfindən bir daha qeyd edilib ki, yataqların qanunsuz istismarı dayandırılmalı, ərazidə kompleks monitorinq işləri həyata keçirilməlidir.

Ekofəaların tələbləri hələ də yerinə yetirilməyib

Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqları, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarı əleyhinə Laçın yolunda keçirilən aksiya bir həftədir ki, davam edir. Etirazçılar ekoloji terrora son qoyulmasını, yataqlarda monitorinq keçirilməsinə şərait yaradılmasını tələb edirlər.

Eyni zamanda şüarlarda Rusiya sülhməramlılarının komandanı Andrey Volkovla görüş də tələb olunur. Aksiyaya qoşulanların sayı isə hər keçən gün artır. Etirazçılar tələbləri yerinə yetirilənədək aksiyanı davam etdirəcəklərini və bunun dinc aksiya olduğunu vurğulayırlar. Vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekofəalların Şuşa-Laçın yolunda həyata keçirdikləri aksiya ictimaiyyətin ekoloji terrora şərait yaradan sülhməramlılara qarşı haqlı narazılığının göstəricisidir.

Ermənilər hər bir haldan sui-istifadə etdikləri kimi bu aksiyanın keçirilmə məqsədinə də başqa don geydirməyə çalışır, qərəzli iddialar irəli sürürlər. Rəsmi İrəvan bildirir ki, Laçın yolu guya etirazçılar tərəfindən bağlanıb, bölgədə humanitar fəlakət yaşanır, etnik təmizlənmə həyata keçirilir. Təbii ki, bu, düşmənin hər

zamankı kimi böhtanı, həqiqəti əks etdirməyən məlumatlarıdır.

Laçın yolu isə azərbaycanlı etirazçılar tərəfindən deyil, Rusiya sülhməramlı kontingenti tərəfindən bağlanıb. Etirazçılar isə orada sivil aksiya keçirir və haqlarını tələb edirlər. Göründüyü kimi, ekofəaların aksiyası Qarabağda yaşayan ermənilər üçün heç bir təhdid yaratmır.

Eyni zamanda Qarabağda yaşayan ermənilərin qazla təchizatının dayandırılması barədə də doğru olmayan məlumatlar yayılır. Bu isə dezinformasiya olmaqla yanaşı, həm də gülünc məlumatdır, çünki Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərdə qaz təchizatı Ermənistan tərəfindən həyata keçirilir və sözügedən ərazilər ölkəmizin qaz təchizatı sisteminə hələ ki inteqrasiya olunmayıb. Digər həyati əhəmiyyətli yüklərin daşınmasına isə etirazçılar tərəfindən heç bir maneə yaradılmır.

Ümumiyyətlə, Ermənistan hökumətinin Azərbaycan əraziləri daxilində baş verən hadisələrə verdiyi şərhlər onların ölkəmizə qarşı ərazi iddialarının hələ də davam etdiyinin göstəricisidir. Ermənistan qeyri-qanuni iqtisadi fəaliyyəti ilə beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozur və bu, hüquqi məsuliyyət yaradır. Qeyd edək ki, əlvan metalların qeyri-qanuni hasilatını aparan şirkətlərə qarşı Azərbaycan hökuməti tərəfindən hüquqi tədbirlər görülür.

Sərvətlərimizin qeyri-qanuni istismarı beynəlxalq konvensiyaların pozulmasıdır

Müzəffər ordumuzun tarixi qələbəsini, döyüş meydanlarında əldə etdiyi uğurları mənfur qonşularımız hələ də həzm edə bilmir, hələ də revanşist hisslərlə yaşayanlar var. Ölkəmizin yeraltı və yerüstü sərvətlərinə göz dikən Ermənistan tərəfi Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində onların hərəkətsizliyindən istifadə edərək hələ də faydalı qazıntı yataqlarının qanunsuz istismarını həyata keçirir, torpaqlarımızı ekoloji və digər fəlakətlərə məruz qoyurlar.

Ərazidə təbii sərvətlərin qeyri-qanuni istismarı, habelə ekoloji vəziyyətin pisləşməsi ilə bağlı ilkin monitorinq məqsədilə Azərbaycan Respublikası dövlət qurumlarının nümayəndələrinin və mütəxəssislərin əraziyə girişinə maneçilik törədilməsi səbəbindən Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin və ekoloqların etiraz aksiyası təşkil olunmuşdur. Şuşa-Laçın yolunda təşkil olunmuş etiraz aksiyasının məqsədi ondan ibarətdir ki, Azərbaycanın sözügedən ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarı dayandırılmalı, bütün təbii sərvətlərin istismarı Azərbaycan Respublikası qanunvericiliyi əsasında həyata keçirilməlidir. Bu məqsədlə respublikamızın bütün faydalı qazıntı yataqları, o cümlədən "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarına yerində baxış, qanunsuz istismarın dayandırılması, müxtəlif istiqamətlər üzrə monitorinq və inventarizasiyanın aparılması, əmlakın kadastr uçotunun təşkili, ətraf mühitə, yeraltı və yerüstü su mənbələrinə potensial zərərin və risklərin qiymətləndirilməsi və dəymiş zərərin nəticələrinin aradan qaldırılması məsələləri üzrə işçi qrup yaradılmışdır. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət ərazilərimizdə faydalı qazıntı yataqlarının qanunsuz istismarı və bundan irəli gələn ekoloji və digər fəsadlar ilə bağlı sülhməramlı kontingentin komandanlığı ilə danışıqlar aparılmışdır. Danışıqlar nəticəsində əldə olunmuş razılığa baxmayaraq, Rusiya sülhməramlı kontingenti tərəfindən monitorinqin keçirilməsinə maneçilik törədilmişdir.

Ölkəmizin hər yerində, istər müəssisə və təşkilatlar, istərsə də qeyri-dövlət qurumları, eləcə də bütün ziyalı kontingenti Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekologiya fəallarının Şuşa-Laçın yolunda həyata keçirdiyi etiraz aksiyasını dəstəkləyir, dünya ictimaiyyətini xalqımızın haqlı narazılığına və vətəndaş cəmiyyətinin bu mövqeyinə hörmətlə yanaşılmalı olduğunu bəyan edirlər. Eyni zamanda Ermənistan tərəfindən Laçın-Xankəndi yolundan hərbi məqsədlər, minaların və talan olunan təbii sərvətlərin daşınması məqsədilə istifadə edilməsinin qarşısı alınmalı, kriminal iş adamı Ruben Vardanyan tərəfindən Azərbaycanın təbii sərvətlərinin talan edilməsinə və ətraf mühitə ciddi ziyan vurulmasına yol verilməməlidir.

Qeyd edək ki, Laçın yolu azərbaycanlı etirazçılar tərəfindən deyil, Rusiya Federasiyasının sülhməramlı kontingenti tərəfindən bağlanıb. Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələri sadəcə talan edilmiş təbii sərvətlərin qanunsuz daşınmasının qarşısını almağa çalışır. Ermənistan hökuməti Azərbaycan əraziləri daxilində baş verən hadisələrə verdiyi şərhlər Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının hələ də davam etdiyinin göstəricisidir və bu cür bəyanatların Ermənistan baş nazirinin Praqa və Soçidə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət edilməsi üzrə bir daha qəbul etdiyi öhdəliklərə ziddir.

ATƏT, BMT-nin İnkişaf Proqramı (UNDP), Ətraf Mühit Proqramı (UNEP), Avropa Şurası Parlament Assambleyası (PACE) tərəfindən qəbul olunmuş hesabatlarda və qətnamələrdə işğal dövründə ərazilərimizdə həyata keçirilmiş qeyri-qanuni iqtisadi fəaliyyət və təbii sərvətlərin qanunsuz istismarı faktları qeydə alınıb. Odur ki, əlvan metalların qeyri-qanuni hasilatını aparan şirkətlərə qarşı Azərbaycan hökuməti tərəfindən hüquqi tədbirlər görülür.

10 noyabr 2020-ci il tarixdə Azərbaycanın, Rusiyanın və Ermənistanın liderlərinin imzaladığı bəyanatın müddəaları Ermənistan tərəfindən hələ də yerinə yetirilmir. Bəyanatın 4-cü bəndinə zidd olaraq erməni silahlı qüvvələri hələ də Azərbaycan ərazilərindən çıxarılmayıb, 6-cı bəndinə zidd olaraq Laçın yolundan həm hərbi təxribatlar, həm də qeyri-qanuni iqtisadi fəaliyyət üçün istifadə olunur, 9-cu bəndinə zidd olaraq bölgədə bütün nəqliyyat-kommunikasiya yollarının açılmasına maneçilik törədilir.

Azərbaycan tərəfi isə dəfələrlə bəyan edib ki, Azərbaycan məsuliyyətli ölkədir, ərazilərimizdə yaşayan bütün erməni sakinlərin humanitar ehtiyaclarını qarşılamağa hazırdır. Azərbaycan fəallarının sülh aksiyası Qarabağda yaşayan ermənilər üçün heç bir təhdid yaratmır. Keçirilən sülh aksiyası səbəbindən Qarabağ ermənilərinin yaşadığı ərazilərin qazla təchizatı dayandırılmayıb və həyati əhəmiyyətli yüklərin keçməsinə maneçilik törədilməyib. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə qaz təchizatı Ermənistan tərəfindən həyata keçirilir və sözügedən ərazilər ölkəmizin qaz təchizatı sisteminə hələ ki inteqrasiya olunmayıb.

Azərbaycan ictimaiyyəti və bütün dünya azərbaycanlıları Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində ermənilərin qanunsuz fəaliyyətləri ilə bağlı monitorinq keçirmək üçün gedən ekofəaların və QHT nümayəndələrinin Şuşa-Xankəndi yolundakı etiraz aksiyasını dəstəkləyir, Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulmasını tələb edir.

Xankəndi-Laçın yolu : Kəskin hava şəraiti aksiya iştirakçılarını qətiyyən qorxutmur

Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarının monitorinqinin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı ekoloqların, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin və fəalların Laçın-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası artıq on gündür davam edir.

Dekabrın 20-də günorta saatlarından yağan qar Şuşanı ağ örpəyə bürüyüb. Havanın şaxtalı, ərazinin qar olmasına baxmayaraq, aksiya iştirakçıları Xankəndi-Laçın yolundadırlar.

Onlar mütəmadi olaraq ekoloji terrora son qoyulması ilə bağlı şüarlar səsləndirirlər.

Gürcü ekspert: Qara qüvvələr anlamalıdırlar ki, regionun inkişafı üçün sülh və təhlükəsizlik lazımdır

"Cənubi Qafqazda sabitliyin və sülhün bərqərar olması Gürcüstanın həm daxili, həm də xarici maraqlarına xidmət edir. Ona görə də hesab edirəm ki, bütün qüvvələr Qarabağ münaqişəsinin tam və ədalətli həlli üçün çalışmalıdır. Bəzi qara qüvvələr başa düşməlidirlər ki, regionun hərtərəfli inkişafı üçün sülh, təhlükəsizlik və sabitlik lazımdır".

Bu sözləri jurnalistlərə açıqlamasında Gürcüstan Rondeli Fondunun təşkilatçılığı ilə Qarabağ müharibəsinə həsr olunmuş tədbirin iştirakçısı, siyasi elmlər, beynəlxalq münasibətlər və təhlükəsizlik araşdırmaları üzrə ekspert, Gürcüstanın sabiq təhsil naziri Giorgi Nodia söyləyib.

Sabiq nazir deyib: "Gürcüstan Qafqazda sülhün tərəfdarıdır. Biz çox istəyirik ki, xalqlarımız sülh və əmin-amanlıq şəraitində yaşasınlar. Gürcüstanda əhalinin böyük bir hissəsini azərbaycanlılar təşkil edirlər. Ölkəmizdə xeyli sayda erməni də yaşayır. Buna görə də Qafqazda olan son vəziyyətin həlli bizim həm daxili, həm xarici maraqlarımıza xidmət edir. Onu da bilirik ki, bu, çox çətindir. Amma mən məsələyə optimist yanaşıram və problemlərin yaxın zamanda həllini tapacağına

inanıram. Düşünürəm ki, bu cür görüşlər, dialoq və müzakirələr gələcək addımlar üçün çox vacibdir".

Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyası iştirakçılarının bəyanatı

Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərində təbii sərvətlərin qanunsuz istismarına qarşı Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyasının iştirakçıları bu aksiyanın BMT Təhlükəsizlik Şurasının iclasında bəzi dövlətlər tərəfindən birtərəfli, qərəzli şəkildə təqdim edilməsi ilə bağlı bəyanat yayıblar.

AZƏRTAC bəyanatı təqdim edir:

"Biz, qeyri-hökumət təşkilatlarını təmsil edən nümayəndələr Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində təbii sərvətlərin qanunsuz istismarına və ekoloji terrora qarşı keçirilən dinc etiraz aksiyasının 2022-ci il dekabrın 20-də BMT Təhlükəsizlik Şurasının iclasında bəzi dövlətlər tərəfindən birtərəfli, qərəzli şəkildə təqdim edilməsi, müzakirələrin yerdə real vəziyyəti əks etdirməməsi ilə bağlı təəssüfümüzü ifadə edirik.

Ermənistan və BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Fransanın bu platformadan birtərəfli şəkildə sui-istifadə etmələri, beynəlxalq ictimaiyyəti çaşdırmaları və çirkin propaqanda aparmaları qəbuledilməzdir. Bu kimi arzuolunmaz cəhdlər regionda davamlı sülhün əldə olunmasına xidmət etmir, əksinə vəziyyətin gərginləşməsinə xidmət edir. Ermənistan, Qarabağda

olan kriminal işbazlar və bir sıra müharibə cinayətkarları da qəsdən yerli əhalini öz siyasətlərinin girovuna çevirir və onların Azərbaycan tərəfi ilə təmaslarına imkan vermir, süni "humanitar fəlakət" ab-havası yaratmağa çalışırlar.

Eyni zamanda, BMT Təhlükəsizlik Şurasında tamamilə əsasız şəkildə Ermənistanın Azərbaycanın suveren əraziləri haqqında iddialarla çıxış etməsi qəbuledilməzdir və bu cür yanaşma Təhlükəsizlik Şurasının təməl prinsiplərinə ziddir.

Bir daha bildiririk ki, etiraz aksiyası dinc xarakter daşıyır və vətəndaş cəmiyyətinin nümayəndələri Azərbaycanın təbii sərvətlərinin talan edilməsinə və ətraf mühitə bərpa olunması mümkün olmayan zərərin vurulmasına son qoyulması istiqamətində şüarlar səsləndirirlər. BMT Təhlükəsizlik Şurasındakı müzakirələrin haqlı narahatlığımızı nəzərə almamasını vətəndaş cəmiyyətinə sayğısızlıq, qərəzli münasibət və selektiv yanaşma kimi dəyərləndiririk.

Təəssüflə vurğulamaq istəyirik ki, dünyada sülhün və təhlükəsizliyin qorunmasına cavabdeh olan əsas qurum kimi BMT Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycan torpaqlarını 30 il ərzində işğal altında saxlamasına, etnik təmizləmə siyasətinə, Xocalı soyqırımına, 1 milyondan çox azərbaycanlının öz doğma yurdlarından qovulmasına, Azərbaycan xalqının mədəni irsinin məqsədli şəkildə dağıdılmasına və talan olunmasına, qeyri-qanuni məskunlaşdırma siyasətinə göz yumdu və özünün qəbul etdiyi qətnamələrin icrası istiqamətində heç bir addım atmadı. BMT Təhlükəsizlik Şurasının ikili standartların girovuna çevrilməsi təəssüf doğurur.

Etiraz aksiyasının keçirildiyi yerdən medianın, ayrı-ayrı sosial şəbəkə istifadəçilərinin verdiyi məlumatlardan aydın görünür ki, humanitar yük, sərnişin daşıyan nəqliyyat vasitələri, təcili tibbi yardım və digər humanitar nəqliyyat vasitələri sərbəst hərəkət edə bilir və bunun üçün aksiya iştirakçıları tərəfindən hər bir şərait yaradılır. Həmçinin ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin humanitar problemlərinin operativ şəkildə həlli üçün QHT-lər tərəfindən qaynar xətt yaradılıb. Buna görə də, erməni əsilli sakinlərin guya "blokada"ya alınması kimi iddiaların heç bir əsası yoxdur.

Biz aksiya iştirakçıları olaraq Laçın yolunun hərbi məqsədlər üçün istifadə olunmasına, təbii sərvətlərimizin talan edilərək ölkədən çıxarılmasına son qoyulmasını tələb edirik. Laçın-Şuşa-Xankəndi yolu Azərbaycan Respublikasının suveren ərazisidir.

Biz həmçinin Ermənistan hakimiyyətinin, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qanunsuz erməni silahlı dəstələrinin erməni əsilli sakinləri təhdid etməsinə, onların Azərbaycana reinteqrasiyasına bütün vasitələrlə manea olmasına qəti etiraz edirik. Biz erməni əsilli sakinlərlə birgə yaşayışa dəvət edirik.

Vətəndaş cəmiyyəti təmsilçiləri olaraq Qarabağda yaşayan erməni əsilli vətəndaşlarımızın humanitar problemləri olduğu halda, onların aradan qaldırılması üçün bütün resurslarımızı səfərbər etməyə hazır olduğumuzu bir daha bəyan edirik".

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

BÜTÜN AZƏRBAYCANLILAR ÜÇÜN ƏZİZ OLAN 31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ BAYRAM EDİLİR. AZƏRBAYCANLILAR BU GÜN İLƏ FƏXR EDİR VƏ ONU QÜRURLA QEYD EDİRLƏR. BAYRAMINIZ MÜBARƏK!



«Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir...»

Ümummilli lider Heydər Əliyev

ASCO

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

(əvvəli 3-cü səhifədə)

Yol-nəqliyyat sisteminin, avtomobil yolları şəbəkəsinin təkmilləşdirilməsi bütövlükdə müasir Azərbaycanın iqtisadi tərəqqisini - sahibkarlığın, turizmin, kənd təsərrüfatının, sosial infrastrukturun, eləcə də mədəni mühitin inkişafını şərtləndirdiyindən bu sahəyə dövlət büdcəsində nəzərdə tutulmuş investisiyaların ildən-ilə artımını da təbii saymaq olar.

İnkişafının keyfiyyətcə yeni mərhələsini yaşayan respublikamızın avtomobil yolları şəbəkəsini müasir tələb və standartlara uyğunlaşdırmadan digər strateji sahələrdə davamlı uğurlar qazanması qeyri-mümkündür. Azərbaycanın Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən geostrateji əhəmiyyətli beynəlxalq magistralların kəsişdiyi bir coğrafi məkanda yerləşdiyini nəzərə aldıqda məsələnin aktuallığı bir qədər də artır.

İşğaldan azad edilmiş ərazilərdə tikilən avtomobil yolları bunlardır: Zəfər yolu (101 km), Əhmədbəyli-Füzuli-Şuşa yolu (84,6 km), Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi, Hadrut-Cəbrayıl-Şükürbəyli (43 km) və Füzuli-Hadrut yolları (13 km), Xudafərin-Qubadlı-Laçın (66 km) və Xanlıq-Qubadlı avtomobil yolları (17 km), Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolu (123,8 km), Bərdə-Ağdam yolu (45 km), Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu (80,7 km),Kəlbəcər-Laçın yolu (72,8 km), Füzuli-Ağdam yolu (64,8 km).

İşğaldan azad edilmiş ərazilərimizin yol-nəqliyyat infrastrukturunun yenidən qurulması yalnız avtomobil yollarının inşası ilə yekunlaşmır. Bu sahədə həyata keçirilən layihələrin bir qismini də regionda dəmir yolu xətlərinin bərpası və yeni xətlərin çəkilişi təşkil edir. Dəmir yolu ilə yüklərin daşınması iqtisadi baxımdan daha sərfəlidir. Xüsusən logistikanın ucuzlaşdırılması baxımından dəmir yolları şəbəkəsinin yaradılması və köhnə yolların yenidən işlək vəziyyətə gətirilməsinin ciddi əhəmiyyəti var.

Xatırladım ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan dəmir yollarının 240,4 km sahəsi işğal altına düşmüşdü. Bura Horadiz-Ordubad sahəsi üzrə 144 km (o cümlədən, Mehri rayonu üzrə 43,4 km), Mincivan-Qafan sahəsi üzrə 39,1 km, Təzəkənd-Xankəndi sahəsi üzrə 51 km, Qazax-Barxudarlı sahəsi üzrə 6,3 km sahə daxildir. İşğal nəticəsində dəmir yolunun təsərrüfatlarına təxminən 45 mln. 60 min dollar məbləğində ziyan dəyib.

2020-ci il noyabrın 24-də Prezident İlham Əliyev **"Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında"** sərəncam imzalayıb.

Sərəncama əsasən, işğaldan azad olunmuş ərazilərin bərpası və Ağdam ra-yonunun dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə ümumi uzunluğu 45 kilometr olan Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsindən vəsait ayrıldı. Bu polad yol 1991-ci ildə Xankəndinin, 1993-cü ildə isə Ağdamın işğal edilməsi ilə doğma qatarlarına, doğma sərnişinlərinə həsrət qalıb. 27 ildir ki, qatarların son dayanacağı Tərtər rayonunun Köçərli stansiyasıdır. Lakin düşmən üzərində qazandığımız qələbə ilə bu yol da aydınlığa çıxıb.

İşğaldan azad olunmuş Azərbaycan ərazilərində həyata keçirilən ən iri yol-nəqliyyat layihələrindən biri Horadiz-Ağbənd dəmir yolu xəttidir. Ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

- Ziyad müəllim, Füzuli, Zəngilan, Laçın Beynəlxalq Hava Limanlarının tikintisini "Böyük Qayıdış"a güclü təkan verən amil kimi qiymətləndirmək lazımdır. Belə modern, yüksək standartlara cavab verən hava limanlarının ikisinin – Füzuli və Zəngilan Beynəlxalq Hava Limanlarının qısa zaman kəsiyində tikilib istifadəyə verilməsi bütün dünyada Azərbaycan "fenomeni" kimi qəbul olunub. Bu xüsusda sizin düşüncələrinizi bilmək istərdik.

- İşğaldan azad edilmiş Azərbaycan ərazilərində yaradılan nəqliyyat infrastrukturunun bir istiqaməti də yeni hava limanlarının inşası təşkil edir. Qeyd etmək lazımdır ki, hələ sovet hakimiyyəti illərində bu rayonlarda kiçik hava limanları mövcud olmuş və işğal dövründə hamısı Ermənistan tərəfindən dağıdılmışdır. Qarabağ bölgəsinin əsas hava limanı Xocalıda idi. Ermənilər onu bərpa etsələr də, Azərbaycan dövləti onun istifadəsinə imkan verməmişdir.

Vətən müharibəsində hərbi qələbədən sonra Azərbaycan dövləti avtomobil və dəmir yolları ilə yanaşı Qarabağda yeni hava limanlarının inşasını da ön plana çəkmişdir. Qarabağda tikiləcək hava limanları barədə hələ 2021-ci il yanvarın 6-da 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə çıxış edən dövlət başçısı demişdi. *"Mənim göstərişimlə Laçın və ya Kəlbəcər rayonlarının ərazisində müasir beynəlxalq hava limanının tikilməsi üçün yer axtarılır. Düzdür, orada relyef çox çətindir və demək olar ki, ərazilərin mütləq əksəriyyəti dağlıq ərazilərdir. Orada düz yer tapmaq çətindir, amma indi araşdırmalar gedir, ümid edirəm ki, yaxın gələcəkdə mənə məlumat veriləcək. Beləliklə, ya Laçın, ya da Kəlbəcər rayonunda yeni beynəlxalq hava limanı tikiləcək. Füzuli şəhərində isə beynəlxalq hava limanının tikintisinə artıq az vaxt qalıb. Göstəriş verilib, yaxın gələcəkdə artıq inşaat başlanacaq və bu il Füzuli şəhərində, - şəhərdən indi əsər-əlamət qalmayıb, yaxud da ki, o ərazidə beynəlxalq aeroport fəaliyyətə başlayacaq. Bu, həm Qarabağ bölgəsinin inkişafı üçün lazımdır, çünki bütün növ təyyarələr enə biləcək - həm Füzulidə, həm Kəlbəcər-Laçın zonasında.*

Eyni zamanda Şuşaya gəlmək istəyən xarici qonaqlar rahat Füzuliyə enib, oradan avtomobillə Şuşaya gedəcəklər. Aeroportun tikintisi ilə paralel olaraq artıq Füzuli şəhərindən beynəlxalq uçuşların təşkili ilə bağlı ilkin araşdırmalar aparılmalıdır. Beynəlxalq aeroport beynəlxalq uçuşlar təşkil etməlidir".

2021-ci il yanvarın 14-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə Füzulidə Füzuli-Şuşa avtomobil yolu ilə yanaşı, Füzuli Beynəlxalq Hava Limanının da təməli qoyuldu. Hava limanının əhəmiyyəti barəsində danışan Prezident İlham Əliyev deyib: *"Bu gün yanvarın 14-də Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu. Mən hava limanının tikintisi ilə bağlı Azərbaycan xalqına məlumat vermişdim. Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir. Füzuli Beynəlxalq Hava Limanı bu il istifadəyə verilməlidir. Hər halda uçuş-enmə zolağı bu il istifadəyə verilməlidir. Hava limanının binası isə ola bilər bu il, ola bilər gələn il istifadəyə veriləcək. Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər".*

Qeyd etdiyim kimi, Füzuli şəhərinin işğalından öncə şəhərdə yerli əhəmiyyətli olsa da hava limanı mövcud idi. Onun uçuş zolağı 1600 metr idi. Bu hava limanı da bütün şəhər kimi erməni işğalçıları tərəfindən xarabalığa çevrilmişdi.

Təməli qoyulduqdan sonra hava limanının tikintisi sürətlə aparılmışdır. Tikinti getdiyi ərazi döyüş bölgəsi olduğundan, düşmən tərəfindən minalanmışdı. Bu amil tikintinin sürət tempinə təsir göstərmişdir. Belə ki, tikinti ilə yanaşı, minalardan təmizləmə işi paralel aparılmışdır. Bütün bunlara baxmayaraq, qarşıya qoyulmuş işlər vaxtında yerinə yetirilmişdir. Təməli qoyulduqdan cəmi 9 ay sonra - 2021-ci il sentyabr ayının 5-də Füzulidə ilk təyyarənin səsi eşidildi. Həmin gün Bakıdan havaya qalxan "Qarabağ" adlı "Airbus A340-500" tipli sərnişin təyyarəsi 35 dəqiqə sonra Qarabağın yeni inşa olunmuş ilk hava limanında eniş etdi. Füzuli Beynəlxalq Hava Limanına ilk təyyarənin eniş etməsi torpaqlarımızın işğal-dan azad edilməsinin və Qarabağdakı yenidənqurma işlərinin növbəti təcəssümü oldu. 2021-ci il oktyabrın 26-da isə Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Füzuli Beynəlxalq Hava Limanının açılışı oldu.

2021-ci il aprelin 26-da Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın Cəbrayıl və Zəngilan rayonlarına səfərləri zamanı Zəngilanda Beynəlxalq Hava Limanının təməli qoyuldu. Prezident İlham Əliyev təməlqoyma mərasimində bildirib: "Bu gün Zəngilan Beynəlxalq Hava Limanının təməl daşını qoyduq. Yaxın gələcəkdə Zəngilanda beynəlxalq hava limanı inşa ediləcək. Bu hava limanının uçuş-enmə zolağı üç kilometrə bərabər olacaq. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etməyə qadir olacaq.

…Zəngilan rayonunun coğrafi yerləşməsi və burada olan imkanlar təbii ki, Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün im-kanlar yaradır. Təsadüfi deyil ki, hava limanı məhz Zəngilanda inşa edildi. Çünki coğrafi vəziyyətə baxdıqda hər kəs görə bilər ki, Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və Şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Əlbəttə ki, Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafı üçün bu hava limanının böyük rolu olacaqdır". Cənab Prezidentin bu arzusu da çin oldu. Zəngilan Hava Limanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə 2022-ci il oktyabrın 20-də açıldı.

2021-ci ilin avqust ayında Laçında Beynəlxalq Hava Limanının təməli qoyuldu. Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq Laçın Beynəlxalq Hava Limanı olduqca mühüm strateji əhəmiyyət daşıyacaq. Bu hava limanı Laçın və Kəlbəcər rayonları ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq.

İşğaldan azad edilmiş ərazilərdə hava limanlarının tikintisi, ilk növbədə bu ərazilərdə infrastrukturun daha sürətli inkişafına, yaşayış məntəqələrinin dirçəlməsinə və onların genişlənməsinə kömək edəcək. Bununla yanaşı, Qarabağın işğaldan azad edilməsindən sonra sürətlə aparılan bu infrastruktur layihələri geosiyasi və geoiqtisadi baxımdan Azərbaycanın nüfuzunu artırmaqdadır. Buna görə postkonflikt dövründə bu limanların rolu çox böyük olacaq. Bütövlükdə isə iqtisadi qiymətləndirmələr göstərir ki, işğaldan azad olunan ərazilərimizdə 3 hava limanının fəaliyyət göstərməsi iqtisadi baxımdan səmərəli olacaqdır. Ən başlıcası, nəqliyyat və logistika baxımından bu limanlar strateji əhəmiyyət daşıyırlar. Eyni zamanda onlar turizmin, aqrobiznesin, kənd təsərrüfatının inkişafına müsbət təsirini göstərəcək.

Azərbaycan dövləti Qarabağa yeni həyat bəxş edir və Qarabağ sürətlə dirçəlir. Bu siyasətin tərkib hissəsi kimi işğaldan azad olunmuş torpaqlarımızın yol-nəqliyyat infrastrukturu da yenidən qurulur, bərpa edilir. Düşmənin illər boyu vurduğu yaraların hamısı sağalacaqdır. Prezident İlham Əliyevin xüsusi qayğısı və qətiyyəti nəticəsində işğaldan azad olunmuş torpaqlara yeni nəfəs gələcək və Qarabağ nəinki əvvəlki şöhrətini bərpa edəcək, həm də ölkəmizin əsas iqtisadi və turizm bölgələrindən birinə çevriləcək.

- Müsahibəyə görə təşəkkür edirəm. "Böyük Qayıdış"a doğru müqəddəs və şanlı bir yola çıxmışıq. Hələ başlanğıcdayıq. Bundan sonra sizinlə sevinc dolu, qələbə müjdəli müsahibələrimiz çox olacaq. Tanrı sizləri, bizləri və bütöv Azərbaycanı qorusun!

Müsahibəni apardı:
Zülfü İlyasov,
"İqtisadiyyat" qəzetinin
xüsusi müxbiri

Azərbaycan alternativ və yaşıl enerjiyə keçid sahəsində Aİ-nin mühüm tərəfdaşıdır

Avropa İttifaqının ən nüfuzlu beyin mərkəzlərindən biri sayılan Avropa Siyasəti Mərkəzinin böyük siyasi analitiki Amanda Pol dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanması faktını yüksək qiymətləndirib.



Amanda Pol AZƏRTAC-a müsahibəsində deyib: "Rusiyanın Ukraynaya müdaxilə etməsi və enerjinin veponizasiyası (yəni "silaha" çevrilməsi) siyasəti iki faktı üzə çıxarıb: Rusiya qazından asılılıq Avropa İttifaqını çox zəiflədir və Aİ-nin enerji təhlükəsizliyinin təmin edilməsi üçün enerji tədarükünün şaxələndirilməsi zəruridir. Eyni zamanda, qazıntı şəklində mənbələrə əsaslanan energetikadan alternativ və yaşıl mənbələrə keçid əvvəllər görünməmiş dərəcədə aktualdır. Bərpa olunan enerji mənbələri günəş, su, külək, termal istilik və bioloji enerji mənbələridir. Avropa İttifaqı indiki böhrandan bərpa olunan enerji mənbələrinə keçidin ləngidilməsi üçün bəhanə kimi istifadə etməməli, əksinə, bu keçidi sürətləndirməlidir. Bu prosesdə Avropa İttifaqının tərəfdaşları mühüm rol oynayır. Onlardan biri də Avropanın çox mühüm energetik tərəfdaşı Azərbaycandır. Yaşıl texnologiya əsasında – quruda külək elektrik generatorlarından istifadə edilməsi yolu ilə alınan elektrik enerjisinin Avropaya ixrac edilməsi üçün sualtı kabel çəkilməsi barədə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan liderləri tərəfindən bu yaxınlarda imzalanmış saziş bu siyasətin yaxşı nümunəsidir. Bu layihə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfə verəcək".

Азербайджанский ученый избран лауреатом программы талантов в Китае



Слева направо: *Ректор университета академик Чжао Мин, академик Эльчин Халилов и секретарь Комитета Коммунистической Партии Университета Сэ Шу Хуа*

В Вэньчжоуском университете состоялась церемония встречи академика Эльчина Халилова в связи с назначением его на должность приглашенного профессора Вэньчжоуского университета по программе «Таланты» в качестве высококвалифицированного зарубежного научного эксперта и руководителя исследовательской программы ZEOMAG.
Ректор университета академик Чжао Мин вручил академику Эльчину Халилову диплом назначенного профессора Вэньчжоуского университета.
Президент Международной академии наук – Международного совета по научному развитию (ICSD/IAS) Вальтер Кофлер (Австрия) поздравил члена Президиума Международной академии наук академика Эльчина Халилова с избранием в программу талантов в Китае и вступлением в должность офис в Вэньчжоуском университете и пожелал ему больших успехов на новом посту, а также заверил в полной поддержке его научных исследований в Китае со стороны Международной академии наук.

МГИМО уволил Александрова за провокационные высказывания в адрес Азербайджана

Михаил Александров, ведущий эксперт Центра военно-политических исследований МГИМО, уволен из института за провокационные высказывания в адрес Азербайджана.
Как передает Report, об этом сообщает ректорат вуза.
«В прошедшую пятницу в эфире одного из российских телеканалов М.Александров, занимавший должность ведущего эксперта (0,5 ст.) Центра военно-политических исследований университета, допустил высказывания, наносящие ущерб союзническим отношениям России и Азербайджана, грубо исказил цели и задачи российской политики в отношении соседнего дружественного государства. Безосновательная агрессивность и вопиющий непрофессионализм высказываний Александрова вызвали предельно жесткую негативную реакцию внешнеполитического сообщества, возмущение мгимовцев. Имиджу и интересам Университета был нанесен серьезный ущерб.
Исходя из несовместимости действий Александрова со статусом сотрудника МГИМО, а также из установленных фактов крайнего небрежения служебными обязанностями со стороны Александрова, Ректором был подписан приказ о прекращении трудовых отношений и увольнении М.Александрова из университета», - говорится в сообщении вуза.

Разрушения в городе Агдам напоминают Варшаву времен Второй мировой войны

Разрушения в городе Агдам в результате 30-летней армянской оккупации сравнимы с разрушениями в Варшаве в период Второй мировой войны.
Как передает Trend, об этом сказал посол Польши в Азербайджане Рафал Поборски в ходе открытия фотовыставки, посвященной влиянию польских архитекторов на формирование облика Баку. Посол выразил надежду, что Агдам и другие пострадавшие от оккупации города Азербайджана будут восстановлены.
Он добавил, что польские компании проявляют интерес к восстановлению освобожденных территорий.
Поборски подчеркнул, что все фотографии, продемонстрированные на выставке, сняты азербайджанским фотографом, проживающим в Польше.
«Эта уникальная выставка демонстрирует взгляд на влияние польских архитекторов на формирование облика Баку с точки зрения азербайджанца», - сказал он.

Швейцария заинтересована в развитии сотрудничества с Азербайджаном



Швейцария заинтересована в развитии сотрудничества с Азербайджаном в связи с Транскаспийским международным транспортным маршрутом (ТМТМ), или так называемым Средним коридором.
Об этом сказал руководитель отдела двусторонних экономических связей Государственного секретариата Швейцарии по экономике (SECO) Эрвин Боллингер.
"Мы видим большой потенциал в развитии Среднего коридора. Он сократит путь для поставок с Востока на Запад", - сказал Боллингер.
Он отметил, что недавно побывал в Бакинском международном морском порту и Алятской свободной экономической зоне и увидел огромный потенциал для дальнейшего развития этой инфраструктуры.
Говоря о сотрудничестве между странами, Боллингер отметил, что только в этом году объем товарооборота между Азербайджаном и Швейцарией вырос на 50 процентов.
"Также у нас есть взаимные инвестиции. Мы инвестируем не только в классические отрасли, такие как нефть и газ, но и в новые инновационные отрасли, такие как агробизнес", - сказал он.
Он отметил, что SECO активно работает в Азербайджане во многих сферах, в основном для обеспечения финансирования агробизнеса.
"Считаю, что мы также можем расширить наше сотрудничество в областях устойчивой энергетики и информационных технологий", - подчеркнул Боллингер.

Южный газовый коридор превратит Сербию в транзитную страну

Подключившись к Южному газовому коридору, Сербия не только повысит свою энергетическую безопасность, обеспечив дополнительный маршрут поставок, но и получит возможность стать транзитной страной, через которую этот газ будет поступать в другие страны как в регионе, так и в Европе. Об этом сказала в эксклюзивном интервью Trend министр энергетики Сербии Дубравка Джедович.
«Значение поставок газа в Европу по Южному газовому коридору в ближайшие годы, безусловно, возрастет, о чем свидетельствует заинтересованность ЕС в увеличении импорта газа из Азербайджана. Азербайджанский газ, безусловно, внес бы свой вклад в повышение энергетической безопасности в Европе, и это особенно актуально для нашего региона, которому еще предстоит диверсифицировать источники поставок», - добавила она.
Напомним, что 31 декабря 2020 года начались поставки азербайджанского газа в Европу по «Южному газовому коридору».

Фатих Донмез об увеличении пропускной способности TANAP

Увеличение пропускной способности Трансанатолийского газопровода (TANAP) требует консенсуса между заинтересованными сторонами.
Об этом в ходе брифинга сказал министр энергетики и природных ресурсов Турции Фатих Донмез. Он выразил надежду, что мощность газопровода увеличится с 16 миллиардов кубометров до 32 миллиардов кубометров в год.
«Турция будет не только покрывать собственные потребности в энергии, но и поддерживать транспортировку энергоносителей в Европу, в частности, в Юго-Восточную Европу», — добавил министр.
Донмез отметил, что одной из важных задач является превращение Турции в центр торговли энергоресурсами.
Отметим, что согласно данным минэнерго, Азербайджан в январе-ноябре 2022 года экспортировал в Европу 10,3 миллиарда кубометров газа. Экспорт газа в Турцию составил 7,6 миллиарда, в Грузию - 2,2 миллиарда кубометров.
Экспорт газа в нынешнем году вырос на 19 процентов по сравнению с аналогичным периодом 2021 года. Объем поставок газа по Трансанатолийскому газопроводу (TANAP) в Турцию в отчетный период 2022 года составил 5,2 миллиарда кубометров
Отметим, что в целом в январе-ноябре 2022 года Азербайджан экспортировал 20,1 миллиарда кубометров газа.

В МИРЕ

Цена газа в Европе опустилась ниже $1100 впервые с 17 ноября

Стоимость январских фьючерсов на хабе TTF в Нидерландах опускалась на 7%, ниже €100,21 за 1 МВт•ч, следует из данных торгов Лондонской биржи ICE.
В последний раз цена была на таком уровне 17 ноября, передает Trend со ссылкой на "Коммерсант".
Около 11:40 мск фьючерсы торговались ниже отметки $1100 за 1 тыс. куб. м. Позже снижение замедлилось. По состоянию на 12:50 мск цена на газ в Европе составляла $1148 за 1 тыс. куб. м. 19 декабря, страны Евросоюза согласовали потолок цен на газ, который начнет действовать с 15 февраля 2023 года и составит около €180 за 1 МВт•ч, или $1,9 тыс. за 1 тыс. куб. м. Однако ограничение не заработает, если разница между котировкой на хабе и ценой СПГ в Европейском регионе не превысит €35 за 1 МВт•ч.

Elektrik enerjisi sahəsində əməkdaşlıq Azərbaycanın əhəmiyyətini daha da artırır

"Dekabrın 17-də imzalanan Buxarest Sazişi Rumıniyada enerji təhlükəsizliyinin artırılmasına, Macarıstan və Moldovada davamlı ixrac imkanlarına, həmçinin kömür istehsalından yeni texnologiyaya keçidə töhfə verə bilər".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Rumıniya Akademiyasının İqtisadi Proqnozlaşdırma İnstitutunun elmi işçisi, Enerji və Ətraf Mühit Məsləhət Mərkəzinin icraçı direktoru, Rumıniya Parlamentinin enerji məsələləri üzrə eksperti, Rumıniyanın Avropa İttifaqına (Aİ) üzvlük və enerji strategiyasının hazırlanmasında iştirak edən professor elmlər doktoru Yonuts Purika bildirib.

Onun sözlərinə görə, Azərbaycan qaz tədarük etməklə Aİ-nin enerji təhlükəsizliyi üçün mühüm rol oynamağa başlayıb. Elektrik enerjisi sahəsində əməkdaşlığın genişləndirilməsi isə Azərbaycanın əhəmiyyətini daha da artırıb. Elektrik sistemlərinin qarşılıqlı əlaqəsi Azərbaycan üçün Aİ-yə inteqrasiya prosesində, əlaqələrin möhkəmlənməsində, qarşılıqlı maraqların qorunmasında mühüm addımdır.

Saziş Rumıniya ilə Azərbaycan arasında müxtəlif iqtisadi sahələrdə davamlı, geniş əməkdaşlıq platforması yaradır.

Fatih Dönməz TANAP-ın gücünün artırılması şərtləri haqqında

"Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) gücünün artırılması maraqlı tərəflər arasında konsensus tələb edir".

DHA-ya istinadən xəbər verilir ki, bunu Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Fatih Dönməz brifinq zamanı deyib.

O, qaz kəmərinin ötürücülüyünün ildə 16 milyard kubmetrdən 32 milyard kubmetrə qədər artacağına ümid etdiyini bildirib. "Türkiyə təkcə öz enerji ehtiyacını ödəməklə kifayətlənməyəcək, həm də enerji ehtiyatlarının Avropaya, xüsusən də Cənub-Şərqi Avropaya nəqlinə dəstək verəcək", - nazir əlavə edib.

Dönməz qeyd edib ki, mühüm vəzifələrdən biri Türkiyəni enerji ticarəti mərkəzinə çevirməkdir.

Qeyd edək ki, Energetika Nazirliyinin məlumatına görə, 2022-ci ilin yanvar-noyabr aylarında Azərbaycan Avropaya 10,3 milyard kubmetr qaz ixrac edib.

Türkiyəyə 7,6 milyard, Gürcüstana isə 2,2 milyard kubmetr qaz ixrac edilib.

Qeyd edək ki, ümumilikdə 2022-ci ilin yanvar-noyabr aylarında Azərbaycan 20,1 milyard kubmetr qaz ixrac edib.

Rusiya, Azərbaycan və İranın enerji sistemlərinin birləşdirilməsini gücləndirmək lazımdır

"Rusiya, Azərbaycan və İran üç dövlətin enerji sistemlərinin birləşdirilməsi istiqamətində işi gücləndirməlidir". Bu barədə Rusiya Energetika naziri Nikolay Şulqinov İranın Energetika naziri Əli Əkbər Mehrabian ilə görüşü zamanı deyib.

"Layihənin həyata keçirilməsində nəzərə alınmalı olan prioritet məsələlərdən biri də Rusiya və İranın enerji sistemlərinin etibarlılığının və paralel işləməsinin sabitliyinin təmin edilməsidir", - deyə nazir bildirib. Bundan başqa, görüş zamanı tərəflər İranda Sirik İES layihəsinin hazırkı vəziyyətini, eləcə də elektrik şəbəkəsi



iqtisadiyyatı sahəsində qarşılıqlı əlaqələri müzakirə ediblər. Eyni zamanda, İran tərəfi Rusiya enerji avadanlıqlarından, o cümlədən qaz turbinlərindən istifadə etməklə, İranda istilik elektrik stansiyalarının tikintisi və bərpa olunan enerji istehsalı sahəsində əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb.

Gələn il Rumıniya Azərbaycandan təxminən 300 mln. kubmetr qaz alacaq

Rumıniyanın "Romgaz S.A." şirkəti 2023-cü ilin birinci rübündə təxminən 300 milyon kubmetr Azərbaycan qazı alacaq.

Xəbər verildiyi kimi, dekabrın 16-da SOCAR ilə Rumıniyanın "Romgaz S.A." şirkəti arasında 2023-cü ildən etibarən Azərbaycan qazının tədarükünə dair müqavilə imzalanıb.

"İmzalanmış qısamüddətli spot müqavilə 2025-cü il yanvarın 1-dən aprelin 1-dək SOCAR trəfindən 300 milyon kubmetrədək tədarükü nəzərdə tutur". Bu barədə ICIS-a (Independent Commodity Intelligence Services) istinadən məlumat verilir.

Gündəlik tədarükün həcmi 4.2 milyon kubmetrədək təşkil edəcək. Öncə SOCAR məlumat verib ki, müqavilə çərçivəsində "Romgaz S.A." 2023-cü il yanvarın 1-dən etibarən təbii qaz Yunanıstan-Komotini çıxış nöqtəsindən Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru (IGB) vasitəsilə nəql ediləcək.

Öz növbəsində, "Romgaz S.A." öz məlumatında qeyd edir ki, "bu müqavilənin imzalanması ilə tələbatın ödənilməsi məqsədilə Azərbaycan qazına çıxış imkanı təmin edilir".

Daha əvvəl Azərbaycan Prezidenti İlham Əliyev bəyan edib ki, 2021-ci ildə Azərbaycan 19 milyard kubmetr qaz ixrac edib. Avropaya qaz ixracının həcmi 8,2 milyard kubmetr təşkil edib.

2023-cü ildə ixracın həcmi 24 milyard kubmetrədək, o cümlədən Avropaya ixracın ən azı 11,6 milyard kubmetr həcmində olacağı proqnozlaşdırılır.

"Taxıl dəhlizi" ilə Ukraynanın 14,3 milyon ton məhsulu ixrac edilib

"Taxıl dəhlizi" işə başlayandan indiyədək Ukraynanın 14,3 milyon ton kənd təsərrüfatı məhsulu ixrac edilib.

Ümumilikdə avqustun əvvəlindən Asiya, Avropa və Afrika ölkələri üçün kənd təsərrüfatı məhsulları daşıyan 569 gəmi Ukrayna limanlarını tərk edib.

Bu barədə Ukraynanın İnfrastruktur Nazirliyi məlumat yayıb.

Bildirilib ki, "Taxıl dəhlizi"nin həyata keçirilməsi çərçivəsində dekabrın 20-də Ukraynanın ərzaq məhsulları ilə dolu daha 4 gəmisi Odessa limanlarını tərk edib.

Məlumata görə, gəmilərin göyərtəsində ümumilikdə 129 min ton kənd təsərrüfatı məhsulu var və onlar Asiya, Avropa və Afrika ölkələrinə yola salınıb.

Hazırda Odessa limanlarında 27 gəmi emal mərhələsindədir. Onlara 1 milyon ton Ukrayna kənd təsərrüfatı məhsulu yüklənir.

Xatırladaq ki, iyulun 22-də Ukrayna, Rusiya, Türkiyə və BMT Ukrayna taxılının Qara dəniz vasitəsilə ixracının həyata keçirilməsi ilə bağlı dördtərəfli saziş imzalayıb. Taxıl daşıyan ilk gəmi avqustun 5-də Odessa limanını tərk edib.

Dünya Bankı Çinin artım proqnozunu aşağı saldı

Dünya Bankı Çin iqtisadiyyatının 2023-cü il üçün artım proqnozunu aşağı salıb.

Dünya Bankı Çin iqtisadiyyatı üçün 2023-cü il üçün artım proqnozunu 4,5 faizdən 4,3 faizə endirib.

Bankdan verilən açıqlamada daxili və xarici şərtlərin Çində iqtisadi vəziyyətin zəifləməsinə səbəb olduğu bildirilib.

Epidemiya da Çində iqtisadi fəaliyyətə mənfi təsir edir.

Açıqlamada Çin iqtisadiyyatının bu il 2,7 faiz, gələn il isə 4,3 faiz artacağının gözlənildiyi bildirilib.

Dünya Bankı sentyabr ayında açıqladığı proqnozlarında Çin iqtisadiyyatının bu il 2,8 faiz, gələn il isə 4,5 faiz artacağını proqnozlaşdırmışdı.

Çinin iqtisadi inkişaf perspektivinin epidemiyanın qeyri-müəyyən gedişindən irəli gələn əhəmiyyətli risklərə məruz qaldığı qeyd

edilərək, daşınmaz əmlak sektorunda davam edən stressin daha geniş makroiqtisadi və maliyyə təsirləri ola biləcəyi vurğulanıb.

Açıqlamada iqlim dəyişikliyi ilə bağlı risklərin də artdığı vurğulanıb, ölkə xaricindəki risklərin son dərəcə qeyri-müəyyən qlobal iqtisadi artım gözləntiləri, maliyyə şərtlərinin gözlənildiyindən daha çox sərtləşməsi və geosiyasi gərginliyin artması ilə bağlı olduğu bildirilib.

Açıqlamada deyilir ki, məşğulluq subsidiyaları və ictimai iş proqramları gənclərin məşğulluğuna qısamüddətli dəstək verir.

BEA bu il rekord kömür istehlakını proqnozlaşdırır

IEA qlobal kömür istehlakının 2022-ci ildə ilk dəfə olaraq səkkiz milyard tonu keçəcəyini gözləyir.

Beynəlxalq Enerji Agentliyinin (IEA) proqnozuna görə, enerji böhranı fonunda qlobal kömür istehlakı 2022-ci ildə yeni yüksək həddə çatacaq.

IEA Kömür 2022 hesabatında yazır ki, "Kömürə qlobal tələb 2022-ci ildə də artacaq və bu, enerji böhranı şəraitində onu bütün zamanların ən yüksək həddinə çatdırmaq üçün kifayət edəcək. Bərpa olunan enerjiyə keçidi sürətləndirmək üçün daha güclü tədbirlər görülməsə, 2025-ci ilə qədər oxşar səviyyələr davam edəcəkdir".

Qeyd edilir ki, 2022-ci ildə dünyada kömür istehlakı 1,2% artaraq ilk dəfə 8 milyard tonu keçəcək və bununla da 2013-cü ildə qeydə alınmış əvvəlki rekord yenilənəcək.

"Kömür qlobal enerji sistemində karbon qazı

emissiyalarının ən böyük mənbəyi olaraq qalacaq", - İEA əlavə edir.

Hesabat müəlliflərinin fikrincə, qlobal enerji böhranı şəraitində təbii qazın yüksək qiyməti elektrik enerjisi istehsalı üçün kömürdən asılılığın artmasına səbəb olub.

Agentlik dünyanın üç ən böyük kömür istehsalçısının - Çin, Hindistan və İndoneziyanın 2022-ci ildə hasilat rekordlarını qıracağını gözləyir.

"Fitch"BP-nin reytinqi üzrə proqnozu yüksəltdi

Fitch Britaniya BP-nin proqnozunu "A" səviyyəsindən müsbətə yüksəldib.

"Fitch Ratings" beynəlxalq reytinq agentliyi Böyük Britaniyanın enerji şirkəti BP plc-nin reytinqi üzrə proqnozu "sabit"dən "müsbət"ə yüksəldib.

Bu barədə agentliyin yaydığı məlumatda deyilir.

Şirkətin uzunmüddətli emitent defoltu reytinqi (IDR) "A" səviyyəsində saxlanılıb, qısamüddətli reytinqi isə "F1" səviyyəsindən "F1+" səviyyəsinə yüksəldilib.

"Müsbət proqnoz 2022-ci ildə borcun əhəmiyyətli dərəcədə azalmasını və BP-nin 2023-cü ildən 20-25 milyard dollar aralığında xalis borcla daha konservativ maliyyə profilinə keçəcəyi gözləntisini əks etdirir", - Fitch analitikləri bildiriblər.

"Aİ və İran dialoqu davam etdirməyə razıdırlar"

"Tehran və Avropa İttifaqı dialoqu davam etdirmək barədə razılığa gəliblər".

Bunu Aİ-nin Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrell İordaniyada İranın Xarici İşlər naziri Hüseyn Əmir Abdullahyanla görüşündən sonra deyib.

"Biz razılaşdıq ki, açıq ünsiyyət saxlamalı və Vyana danışıqları əsasında JCPOA-nı bərpa etməliyik ", – Borrell tvitter hesabında yazıb.

Borrell görüşün "İran və Aİ arasında münasibətlərin pisləşməsi fonunda" baş tutduğunu vurğulayıb. Eyni zamanda Borrell Tehranı " Rusiyaya hərbi dəstəyi və İranda daxili repressiyaları" dayandırmağa çağırıb.

Dekabrın 12-də Avropa İttifaqı İrana qarşı sanksiyalar siyahısını genişləndirərək, ona 20 fiziki və bir hüquqi şəxs əlavə edib.

İran həmçinin 9 təşkilat və 23 şəxsə, Böyük Britaniya və Aİ-yə sanksiya tətbiq edib. Sanksiyalar Aİ ölkələri və Böyük Britaniyanın hərəkətlərinə cavab olaraq tətbiq edilib.



Ən yüksək və ən aşağı əməkhaqqı verən Avropa ölkələri açıqlanıb

Avropa İttifaqı ölkələrində 2021-ci ildə orta əməkhaqqı 33.5 min avro təşkil edib.

"Népszava" qəzetinin Avropa Statistika Agentliyinin (Eurostat) yeni araşdırmasına istinadla yaydığı məlumata görə, ötən il ən yüksək əməkhaqqı Lüksemburq, Danimarka və İrlandiyada, ən aşağı maaş isə Bolqarıstan, Macarıstan və Rumıniyada qeydə alınıb. Belə ki, Lüksemburqda orta illik əməkhaqqı 72.2 min avro, Danimarkada 63.3 min avro, İrlandiyada isə 50.3 min avro olub. Belçika, Avstriya, İsveç, Almaniya, Finlandiya və Fransada bu göstərici Aİ üzrə orta əməkhaqqını üstələyib.

İttifaqın qalan ölkələrində əməkhaqqı orta səviyyədən aşağı olub. Ən az maaşı Bolqarıstan (illik 10.3 min avro), Macarıstan (12.6 min avro) və Rumıniya (13 min avro) sakinləri alıb. Eyni zamanda, Aİ ölkələrində qiymətlərin və vergilərin səviyyəsi də fərqlidir.

Avropa İttifaqı qaz istehlakını 20%-dən çox azaldıb

Cari ilin avqust-noyabr aylarında Avropa İttifaqının təbii qaz istehlakı 2017-2021-ci illərin müvafiq dövrünün ortalama göstəricisi ilə müqayisədə 20.1% azalıb.

Qeyd olunur ki, Aİ-nin Rusiyanın ənənəvi enerji daşıyıcılarından asılılığına son qoymaq planının bir hissəsi olan qaz tələbinin azaldılması üzrə tədbirlər çərçivəsində 2022-ci ilin avqustundan 2023-cü ilin martına qədər əvvəlki ardıcıl beş ilin eyni dövrünün orta göstəricisi ilə müqayisədə 15% azalma hədəfi müəyyən edilib.

Məlumata görə, 2022-ci ilin avqust-noyabr ayları ərzində əksər Aİ dövlətlərdə təbii qaz istehlakı azalıb. 18 üzv dövlətdə istehlak 15%-lik hədəfdən, bəzilərində isə böyük fərqlə (40%-dən yuxarı) aşağı düşüb. İstehlak ən çox Finlandiyada (-52.7%), Latviyada (-43.2%) və Litvada (-41.6%) azalıb.

Altı üzv dövlət təbii qaz istehlakını azaldıb, lakın 15%-lik hədəfə hələ çatmayıb. Bunun əksinə olaraq, təbii qaz istehlakı Malta (+7.1%) və Slovakiyada (+2.6%) artıb.

Çində iqtisadi aktivlik zəifləyir

COVID-19 epidemiyasının qarşısını almaq üçün həyata keçirilən tədbirlər Çinin sənaye istehsalında artımın daha da yavaşlamasına və may ayından bəri pərakəndə satışların ən böyük azalmasına səbəb olub.

Milli Statistika Bürosunun məlumatlarına görə, sənaye istehsalı noyabr ayında ötən ilin eyni ayına nisbətən cəmi 2,2 faiz artıb. İqtisadçılar istehsalın 3,6 faiz artacağını gözləyirdilər. Oktyabr ayında istehsal 5,0 faiz artmışdı. Pərakəndə satışlar isə noyabr ayında ötən ilin eyni dövrünə nisbətən 5,9% azalıb. Satışlar oktyabr ayı ilə müqayisədə 0,15% azalıb. Analitiklər pərakəndə satışların illik müqayisədə 3,7 faiz, oktyabr ayı ilə müqayisədə isə 0,5 faiz azalacağını gözləyirdilər. Çində yanvar-noyabr dövründə daşınmaz əmlak investisiyaları əvvəlki ilin eyni dövrünə nisbətən 9,8% azalıb. 10 ayda investisiyalar 8,8 faiz azalmışdı.

Əsas kapitala investisiyalar isə yanvar-noyabr dövründə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,3% artıb. Proqnoz 5,6% artım idi. Yanvar-oktyabr dövründə artım 5,8% təşkil etmişdi.

Bayden 850 milyard dollarlıq müdafiə büdcəsini imzalayacaq

ABŞ prezidenti Co Bayden bu həftə 850 milyard dollarlıq müdafiə büdcəsini imzalayacaq.

Bu barədə bazar ertəsi brifinq zamanı Ağ Evin mətbuat katibi Karin Jan-Pyer deyib.

"O, bu həftənin sonunda onu imzalayacaq", - deyə mətbuat katibi jurnalistin müvafiq sualına cavabında bildirib.

Xatırladaq ki, daha əvvəl ABŞ Senatı Pentaqonun 2023-cü il üçün 847,3 milyard dollarlıq hərbi büdcəsini təsdiqləyib.

REKORDLARLA ZƏNGİN QƏTƏR MUNDİALI

İtaliyada hazırlanan, Qətərdə qazanılan, Argentinaya yollanan – dünya kuboku

Futbol üzrə Argentina millisi Qətərdə keçirilən dünya çempionatında Fransa yığmasına qalib gələrək dünya çempionu tituluna sahib olub. Komanda, tarixində ilk dəfə 1978-ci ildə dünya çempionluğunu qeyd edib. 1986-cı ildə ikinci dəfə dünyanın ən güclü komandası olan Argentina Qətər mundialında da birincilik qazanmağı bacarıb.

Dünya çempionu adını qazanan komandaya mükafatlandırma mərasimində verilən simvolik kubok və onun surətləri İtaliyada hazırlanır. İkinci Dünya müharibəsi dövrü istisna olmaqla, 1930-cu ildən etibarən FIFA tərəfindən hər 4 ildən bir təşkil edilən futbol üzrə dünya çempionatının 22-cisinə bu il Qətər ev sahibliyi edib.

İndiyədək təşkil olunan 22 çempionatda iki fərqli dizayna malik kubok istifadə edilib. 1930-cu ildə Uruqvayda keçirilən ilk dünya çempionatında qalib komandaya fransalı heykəltəraş Abel Lafleur tərəfindən hazırlanmış və qədim zəfər ilahəsi Nikenin təsviri olan kubok verilib. Bu dizayndakı kubok təxminən 40 il istifadə olunub. Əvvəllər "Qələbə" kuboku kimi tanınan və daha sonra isə FIFA-nın sabiq prezidenti Jül Rimenin adını daşıyan bu kubok 1970-ci ildə Meksikada keçirilən və Braziliyanın 3-cü dəfə çempion olduğu dövrdə "üçqat çempion olan komanda kuboku almaq hüququna malikdir" qaydasına əsasən Cənubi Amerika ölkəsinin muzeyinə verilib.

1970-ci ildəki çempionatdan sonra FIFA yeni dizaynda kuboku müəyyən etmək üçün beynəlxalq müsabiqə keçirib və 53 dizayna malik model müsabiqədə iştirak edib. İtaliyanın "GDE Bertoni" şirkətinin art-direktoru, italyan heykəltəraş Silvio Qazzaniqanın orijinal dizaynı müsabiqənin qalibi olub. S.Qazzaniqanın əllərini havaya qaldıran iki zəfər mələyinin tutduğu Yer planetinin təsviri olan dizaynı hazırda da çempionatın baş mükafatı olmaqda davam edir. Həmin kubok ilk dəfə 1973-cü ildə nümayiş olunub, 1974-cü ildə Almaniyanın ev sahibliyi etdiyi çempionatda təqdim edilib.

Bu unikal dizaynlı kubok son 50 ildə İtaliyanın Milan şəhəri yaxınlığındakı Paderno Dugnanodakı müəssisələrdə istehsal olunur. Kubokun hündürlüyü 38 santimetr, çəkisi 6,2 kiloqramdır və 18 karatlıq qızıldan hazırlanır. Kubok 1974-cü ildə təqdim edilən və FIFA-da qalan yeganə orijinal əsərdir. Orijinal kubok final matçının sonunda keçirilən mərasimdə qalib komandaya təqdim olunur, sonra kubokun altına qalib komandanın adının yazılması üçün "GDE Bertoni" şirkətinə, sonda isə FIFA-ya göndərilir. Qalib komanda orijinal qızıl kuboku deyil, adı həkk olunmuş qızıl-latun ərintisindən hazırlanan nüsxəsini alır.

Messidən rekordlarla bol final matçı

Futbol üzrə Argentina millisi Qətərdə keçirilən dünya çempionatında Fransa yığmasını üstələyərək üçüncü dəfə dünya çempionu olub. Final matçı bir çox göstəricilərə görə Lionel Messi üçün əlamətdar olub.

Argentina millisinin kapitanı Lionel Messi dünya çempionatlarındakı qolların sayına görə Braziliya yığmasının əfsanəvi hücumçusu Peleni geridə qoyub. O, buna Fransa ilə görüşdə dubla imza atmaqla nail olub. Hazırda hesabında 13 qol olan Messi, Jüst Fontenlə birgə dördüncü ən məhsuldar futbolçudur. Dünya çempionatlarında ən çox qol vuran futbolçular isə Miroslav Kloze (16), Ronaldo Nazario (15) və Gerd Müllerdir (14). Final matçında start heyətində yer alan Messi mundiallar tarixində ən çox oyun keçirən futbolçu olub – 26 matç. O, uzun illər Lotar Matteusa məxsus olan rekordu yeniləyib. Almaniya millisinin sabiq üzvü mundiallarda 25 oyuna çıxmışdı.

Ulduz futbolçu dünya çempionatlarında meydanda olduğu dəqiqələrin sayına görə İtaliya millisinin sabiq müdafiəçisi Paolo Maldinini (2 216 dəqiqə) geridə qoyub. Matçın startınadək Messidə bu göstərici 2 194 dəqiqə olub. O, Fransa ilə görüşün 23-cü dəqiqəsində Maldininin rekordunu yeniləyərək, mütləq rekordçuya çevrilib. Argentina komandası 1978-ci və 1986-cı illərdə də dünya kubokunu qazanıb.

Haşiyə: Dünya çempionatının finalında qalib gələn Argentina millisinin kapitanı Lionel Messinin mükafatlandırma zamanı əynindəki geyimi xüsusi diqqət çəkib. Həmin geyimi həlledici qarşılaşmadan sonra Qətər əmiri Təmin bin Həməd əs-Sani argentinalı ulduza hədiyyə edib.

Qətərdə "Bişt" adlanan yerli adət-ənənəyə görə bu geyim mühüm tədbirlər zamanı istifadə olunur. Daha çox nazirlər və vəzifəli şəxslərin istifadə etdiyi bu geyimə mütləq layiq olmalısan.

Argentinalı futbolçu Anxel Di Mariya rekorda imza atıb

O, bu rekorda Qətərdə keçirilən futbol üzrə dünya çempionatının Fransa ilə final oyununda fərqlənməklə nail olub.

Futbolçu mundial, Amerika kuboku yarışı və Olimpiya Oyunlarının finalında qol vuran ilk futbolçu olub.

2008-ci ildə Pekində keçirilən Olimpiya Oyunlarında Di Mariyanın qolu Argentinaya qızıl medal qazandırıb. 2021-ci ildə isə yarımmüdafiəçi Amerika kuboku yarışının finalında Braziliya ilə oyunda qələbə qolunu vurub.

Futbol üzrə dünya çempionatında rekord sayda qol vurulub

Qətərdə keçirilmiş yarışda vurulan qolların sayı 172-yə çatıb. Bundan əvvəl – 1998-ci və 2014-cü illərdə keçirilmiş mundialın hər birində qapılara 171 dəfə qol vurulub. Xatırladaq ki, finalda Argentina yığması Fransanı məğlubiyyətə uğradaraq dünya çempionu olub.

Medianın nəzərindən qaçmayan an

Fransa prezidenti Emmanuel Makron ölkəsinin milli komandasının DÇ-2022-nin finalında Argentina ilə oyununu (3:3, penaltilər seriyası - 2:4) stadiondan izləyənlər arasında olub.

O, matçdan sonra meydana enib. Makron sözügedən görüşdə het-trik edən Fransa millisinin hücumçusu Kilian Mbappeyə və digər futbolçulara təsəlli verib.

Dünya mətbuatının qabartdığı bir nüans da ondan ibarətdir ki, Fransa millisinin lideri ona təsəlli verməyə çalışan Fransa prezidentinin diqqətinə biganəliyini açıq şəkildə nümayiş etdirib…

Beləliklə, 2022-ci ilin futbol üzrə dünya çempionatı başa çatdı. Çempionatın möhtəşəm son oyunu isə maraqlı anları ilə tarixə düşdü və yəqin ki, hələ uzun müddət futbol azarkeşlərinin yaddaşlarında qalacaq…

Kilian Mbappe - dünya çempionatının ən sərrast futbolçusu

Qətərdə keçirilən dünya çempionatının ən sərrast futbolçusu müəyyənləşib.

Bu ada Fransa millisinin hücumçusu Kilian Mbappe sahib olub. Argentina ilə final matçında (3:3) het-trik edən 24 yaşlı hücumçu mundialı 8 qolla başa vurub.

Qeyd edək ki, həlledici qarşılaşmanın penaltilər seriyasında Fransaya qalib gələn Argentina millisi (4:2) üçqat dünya çempionu olub.

Yerli idarəetmənin inkişafı demokratik cəmiyyətin təminatının mühüm amilidir

(əvvəli ötən sayımızda)

Yerli büdcələrin tənzimlənməməsi onların regionlar üzrə icrası prosesində özünü qabarıq şəkildə göstərir. Belə ki, 2021-ci ilin hesabat məlumatlarına əsasən, yerli büdcə daxilolmalarında yerli vergilərin xüsusi çəkisi Bakı şəhərində 75,5% (8718,9 min manat), Gəncə şəhərində 40,4% (506,4 min man.), Balakən rayonunda 46,2% (316,1 min manat), Xaçmaz rayonunda 43,0%, (501,9 min manat), Lənkəran rayonunda 45,0% (162,5 min manat) təşkil etməsinə baxmayaraq, Sumqayıt şəhərində 14,4% (268,2 min manat), Masallı rayonunda 16,9% (82,9 min manat), Sabirabad rayonunda 20,9% (162,5 min manat), Bərdə rayonunda cəmi 17,3% (167,2 min manat) təşkil etmişdir. Qeyd olunanlar bələdiyyə sistemində maariflənmənin aşağı olması, büdcə tənzimlənməsi prosesinin olmaması kimi amillərlə əsaslandırıla bilər. Təsəvvür edin ki, əhali sayı (bələdiyyə sayı hər ikisində 3) təqribən eynilik təşkil edən Gəncə və Sumqayıt şəhərlərinin yerli büdcə gəlirlərində vergi payı müvafiq olaraq 40,4% (cəmi daxilolma 1253,2 min manat, o cümlədən vergilər 506,4 min manat) və 14,4% (cəmi daxilolma 1860,0 min manat, o cümlədən vergilər 268,2 min manat) təşkil etmişdir.

Vətəndaşlara bələdiyyələr tərəfindən sosial xidmətlərin səviyyəsinin daha əyani görülməsi məqsədi ilə adambaşına düşən xərclərin miqyasına nəzər salmaq daha doğru olardı. Ölkəmizdə bu göstərici regionlar üzrə kəskin fərqlənməklə heç bir məntiqi izaha əsaslanmır. Belə ki, adambaşına düşən yerli büdcə xərcləri Qəbələ rayonu üzrə 6,53 manat, Xaçmaz rayonu üzrə 6,88 manat, Bərdə rayonu üzrə 4,58 manat, Sumqayıt şəhəri üzrə 5,43 manat təşkil etdiyi halda, Gəncə şəhəri üzrə 3,59 manat, Ağstafa rayonu üzrə 2,37 manat, Astara rayonu üzrə 1,78 manat, Lənkəran rayonu üzrə 1,75 manat, Kürdəmir rayonu üzrə 2,0 manat, Saatlı rayonu üzrə 1,85 manat və Lerik rayonu üzrə cəmi 0,55 manat təşkil etmişdir. Büdcə prinsiplərinin pozulması şəraitində Lerik rayonunda yaşayan ölkə vətəndaşına göstərilən yerli büdcə xidmətinin Xaçmaz rayon sakinindən 12,5 dəfə az olmasının səbəblərini təhlil edərək konkret tədbirlər görülməsi olduqca vacib məsələdir. Müqayisə üçün qeyd olunmalıdır ki, toplam bələdiyyə büdcələrinin adambaşına düşən xərcləri Türkiyədə 350 ABŞ dolları, Gürcüstanda 165 ABŞ dolları, Azərbaycanda isə cəmi 2,4 ABŞ dolları təşkil edir. Dövlətin icmal büdcə xərclərində isə bələdiyyə xərclərinin hər 1000 ABŞ dollarında xüsusi çəkisi uyğun olaraq Türkiyədə 150 ABŞ dolları, Gürcüstanda 170 ABŞ dolları, Azərbaycanda isə ortalama cəmi 1,5 ABŞ dolları təşkil edir.

Yerli büdcələrin vahid demokratik mərkəzdən büdcə hüquqları qorunmaqla tənzimlənməsinin vacibliyini göstərən digər bir amil yerli büdcə xərclərində bələdiyyə orqanlarının saxlanılması xərclərinin xüsusi çəkisinin kəskin fərqlənməsidir. ***2021-ci ilin statistik məlumatlarına görə, bu göstərici Şəmkir rayonunda 84,7% (bir bələdiyyənin saxlanılması xərci 14,8 min manat), Gəncə şəhərində 76% (bir bələdiyyənin saxlanılması xərci 305,5 min manat), Sumqayıt şəhərində 28,3% (bir bələdiyyənin saxlanılması xərci 177,2 min manat), Yevlax rayonunda 82,3% (bir bələdiyyənin saxlanılması xərci 12,8 min manat), Salyan rayonunda 52,3% (bir bələdiyyənin saxlanılması xərci 13,9 min manat), Bərdə rayonunda 99,2% (bir bələdiyyənin saxlanılması xərci 9,3 min manat), Ağdaş rayonunda 96,4% (bir bələdiyyənin saxlanılması xərci 14,1 min manat), Qəbələ rayonunda 51,9% (bir bələdiyyənin saxlanılması xərci 12,7 min manat) təşkil etmişdir.*** Göründüyü kimi, obyektiv və subyektiv səbəblərdən yerli büdcə vəsaitlərinin böyük hissəsini bələdiyyə orqanının saxlanılmasına yönəldən bələdiyyələr yerli məsələlərin həllini maliyyə imkansızlığı səbəbindən həyata keçirmirlər. Bir bələdiyyə orqanının saxlanılmasına sərf edilən büdcə vəsaitləri arasındakı fərq isə on dəfələrlə ölçülür. Sadalanan amillər imkan verir ki, dövlət büdcəsindən bələdiyyə ayırmalarının xüsusi çəkisi 0,3-0,5% həddinə qaldırılsın. Bu məqsədlə pilot layihə prinsipinə uyğun əhali sayına müvafiq aparılan ayırmaların subvenstlik təyinatları dəqiqləşdirilməli və proseslər müvafiq dövlət orqanları ilə vətəndaşların iştirakının qarşılıqlı şəffaflığı çərçivəsində aparılmalıdır. Plan ili üçün sakinlərin iştirakı ilə hazırlanmış layihələr müvafiq əlaqədar orqanlara təqdim olunmalı, hesabatlılıq ciddiləşdirilməlidir.

Yerli idarəetmədə həlli tələb olunan digər məsələ uzun illər yerli büdcəyə aid edilən vergilərin dəyişilməz qalmasıdır. Bələdiyyə maliyyəsinin əsasını təşkil edən fiziki şəxslərdən torpaq vergisinin dərəcəsi nəinki Avropa ölkələri və qardaş Türkiyədən, hətta MDB məkanı dövlətlərinin müvafiq vergi dərəcələrindən dəfələrlə aşağıdır. ***Təsəvvür edin ki, paytaxt Bakı şəhərinin mərkəzində 200 kvm. həyətyanı sahəsi olan fiziki şəxs illik 1,2 manat (illik 100 kvm. - 60 qəpik) torpaq vergisi (ayda 10 qəpik) ödəyir. Rayon tabeliyində olan şəhər, qəsəbə və kəndlərdə isə 1200 kvm. (12 sot) həyətyanı sahəsi olan fiziki şəxs də həmçinin illik 1,2 manat torpaq vergisi (100kvm. - 10 qəpik) ödəyir.*** Həmçinin nəzərə alınmalıdır ki, diferensiallaşması zəruri olan torpaq vergisi dəyəri on dəfələrlə fərqli olan Bakı şəhərinin mərkəzi ilə ətrafında eyni dərəcə ilə hesablanılır. Bu baxımdan fiziki şəxslərdən torpaq vergisi dərəcələrinə diferensiallaşma tətbiq olunmaqla yenidən baxılması bələdiyyələrin gəlir mənbələrinin artırılması istiqamətində mühüm addım ola bilər.Müqayisə üçün diqqətinizə çatdıraq ki, Türkiyənin İstanbul şəhərinin Kartal bələdiyyəsində illik torpaq vergisinin ortalama dərəcəsi hər 100 kvm. üçün təqribən 100 ABŞ dolları təşkil edir.

O da qeyd olunmalıdır ki, dünya təcrübəsində yerli idarəetmə orqanlarının büdcələrinə aid edilən vergi və digər daxilolmalar yerli əhəmiyyətli vergi və rüsumları özündə birləşdirməklə daha əhatəlidir. Belə ki, buraya əmlak, torpaq, reklam və mədən vergiləri bütöv şəkildə, həmçnin avtomobil vergisi, ev heyvanlarının saxlanmasına görə vergi, ov və əyləncə tədbirlərinə görə vergi, bir neçə mənzilə sahib olmağa görə vergi, tikinti və mirasdan vergi və s. daxildir. Ödənişlərə gəlincə, bura yanacaq və spirtli içkilərin aksizinə görə, ticarətə görə, mehmanxana, sanatoriya və istixanaların açılmasına görə, avtomobil parklamalarına görə ödənişlər, cərimələr və sənədləşmə rüsumları və sair aiddir. Qeyd etmək lazımdır ki, bizdə bu ödənişlərin bir çoxu heç bir büdcə gəlirlərinə aid edilməməklə, dövlət idarəetmə strukturundan kənar formalaşdırılan departamentlərin (saxlanılmasına) və ya müvafiq nazirliklərin büdcədənkənar tədbirlərinə yönəldilir. Göstərilən vergi bazalarının büdcəyə daxil edilməsi səviyyəsindən asılı olmayaraq, ölkədə büdcələrin maliyyə imkanlarını xeyli artırmış olar.

Qeyd olunan və digər məsələlərin təxirə salınmadan həlli ölkəmizdə demokratik cəmiyyətin dinamik quruculuğuna böyük töhfə verə bilər. Odur ki, yerli idarəetmənin demokratik inkişaf tələblərinə cavab verməsi üçün qanunvericilik və icra orqanlarının dəstəyi ilə sistemli və davamlı tədbirlərin həyata keçirilməsi vacibdir. Ölkəmizin bələdiyyə sisteminin inkişafında islahat xarakterli tədbirlərin kompleks xarakterli olması günün tələbidir.

Binəqədi bələdiyyəsinin
sədri: Mürsəl Eminov

İqtisadçılar İttifaqının
eksperti: Saleh Məmmədov

Noyabrda Aİ ölkələrinə 793,9 milyon dollarlıq məhsul göndərilib

Noyabrda Azərbaycandan Avropa İttifaqına (Aİ) üzv ölkələrə 793,9 milyon ABŞ dolları dəyərində məhsul ixrac olunub.

Dövlət Gömrük Komitəsindən bildirilib ki, qeyd edilən dövrdə Aİ ölkələrindən Azərbaycana idxal edilən məhsulun dəyəri isə 209,2 milyon dollar təşkil edib.

İxtisaslı işçi qüvvəsinin artırılması əsas hədəflərimizdəndir

"Bu gün Azərbayxan çoxşaxəli məşğulluq siyasəti həyata keçirir".

Bunu dekabrın 21-də Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev "Gələcəyə hazır ol" karyera inkişaf forumu zamanı çıxışında bildirib. O qeyd edib ki, məşğulluq xidməti 60 mindən çox ailə üçün kiçik biznesin yaradılmasına dəstək verib. "Bu 4 il ərzində əmək müqavilələrinin sayında 400 mindən çox artım olub. Görüləcək kifayət qədər işlər hələ də qarşıdadır. Qarşımızda yeni çağırışlar dayanır. Muzdlu işləyən işçilər arasında ixtisaslı işçilər azdır. İxtisaslı işçi qüvvəsinin artırılması əsas hədəflərimizdəndir", - deyə o əlavə edib.

Azərbaycandan 3649 çeşiddə məhsul ixrac olunub

Cari ilin yanvar-noyabr aylarında Azərbaycandan 3649 çeşiddə məhsul ixrac edilib.

Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb.

Qeyd edək ki, on bir ayda Azərbaycanda ixrac əməliyyatlarının dəyəri 36 milyard 335,5 milyon ABŞ dolları olub.

Yeni Fərman qeyri-neft sektorunda sahibkarların fəaliyyətini genişləndirəcək

"Prezident İlham Əliyevin "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, ərazilər və zonalar, habelə investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ" haqqında 2022-ci il 20 dekabr tarixli Fərmanı sahibkarların dövlət tərəfindən dəstəklənməsi və təşviqini, eyni zamanda, investisiya mühitinin daha da inkişaf etdirilməsini özündə ehtiva edir".

Bu fikirləri Milli Məclisin deputatı Vüqar Bayramov deyib.

O bildirib ki, bu Fərman investisiya təşviqi sənədlərinin verilməsi qaydalarının təkmilləşdirilməsində, həmçinin sektorlar üzrə minimum məbləğlərin təsdiqlənməsində rol oynayacaq. Belə ki, investisiya təşviqi sənədi Bakı, Sumqayıt, Gəncə şəhərləri, Abşeron rayonu və işğaldan azad edilmiş ərazilər istisna olmaqla, digər şəhər və rayonlarda, sənaye məhəllələrində və aqroparklarda, turizm və rekreasiya zonalarında həyata keçiriləcək layihələrə aiddir. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi istiqamətlər üzrə strateji investisiya layihələri təqdim edən hüquqi şəxslərə və fərdi sahibkarlara investisiya təşviqi sənədi 2023-cü il yanvarın 1-dən 3 il ərzində verilir. Məqsəd fərdi sahibkarların, eləcə də fiziki və hüquqi şəxslərin daha yaxından dəstəklənməsi və onların vergi güzəştlərindən istifadə imkanlarının genişləndirilməsidir. Nəzərə alsaq ki, burada mənfəət, gəlir, ölkəyə texnologiyalar idxal edilən zaman xüsusi güzəştlər var və bu da biznesin inkişafı üçün yeni imkanlar açır.

"Sənəd birmənalı şəkildə, yerli biznesin inkişafını təşviq etməklə qeyri-neft sektorunda sahibkarların fəaliyyətinin genişləndirilməsinə və bütövlükdə enerjidən kənar sektorda istehsal həcminin artmasına imkan verəcək. Bu, eyni zamanda, "Azərbaycanın 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetləri"nə uyğundur. Praktik olaraq, yeni sənəd qeyri-neft sektorunun inkişafı üçün yeni imkanlar deməkdir, - deyə deputat qeyd edib.

Cari ildə 187 qadın sahibkara güzəştli kredit verilib

Cari ilin 11 ayı ərzində 187 qadın sahibkara 6,9 milyon manat güzəştli kredit verilib.

Sahibkarlığın İnkişafı Fondundan bildirilib ki, ötən ilin müvafiq dövründə bu göstərici 130 qadın sahibkar üzrə 11,4 milyon manat təşkil edib.

Haşım bəy Mirabdulla oğlu Vəzirov (1868-1916)

Görkəmli Azərbaycan pedaqoqu, publisisti, tərcüməçisi, jurnalisti, yazıçı və naşiri Haşım bəy Vəzirov 1867-ci ildə Şuşa şəhərində anadan olmuş və ilk təhsilini də orada almışdır. Onun ulu babası Mir İmamverdi Qarabağ xanının vəziri olmuş, övladları xanlıqda bəyzadələr kimi məşhurlaşmış, "vəzir" ifadəsini özlərinə soyad seçərək, Vəzirovlar adlanmışlar. Haşım bəy Vəzirov öncə molla yanında müddərrislərdən Molla Həmid və Molla Əlidən dərs almışdır. Sonra şəhər məktəbini bitirmişdir.

İrəvan Müəllimlər Seminariyasını bitirmiş, İrəvan, Bərdə, Şəki və Şuşada müəllimlik etmişdir. Müəllimlər Seminariyasını tamamladıqdan sonra Böyük Vedi kəndində müəllimliyə başlamışdır. Sonra dəyişilərək Cavanşir qəzasının Alpout, Şəki qəzasının Kiçik Göynük, Cavanşir qəzasının Bərdə kəndlərində müəllimlik etmişdir. Bir müddət isə məktəb müdiri işləmişdir.

İmperator Nikolay Aleksandroviçin tacgüzarlığı ilə bağlı Şuşada "müsəlman-rus" məktəbi yaradılır. Mir Haşım bəyi bu məktəbə direktor vəzifəsinə dəvət edirlər. Məktəbdə işləməklə bərabər, şəhər bələdiyyə idarəsinə qlasnı seçilir. İctimai işlə qızğın məşğul olmuşdur. Şuşa real məktəbinin hazırlıq sinfində ana dilindən dərs demişdir.

Vəzirov 30 il ədəbi jurnalistika sahəsində fəaliyyət göstərmişdir. Haşım bəy "Tazə həyat" (1907-1908), "İttifaq" (1908-1909), "Səda" (1909-1911), "Kavkazets" (1911, rus dilində), "Sədayi-vətən" (1911), "Sədayi-həqq" (1912), "Sədayi-Qafqaz" (1915–1916) qəzetlərini və "Məzəli" (1914–1915) jurnalını nəşr etdirmişdir.

Mir Haşım bəy təəssübkeş bir millətçi idi. 1905-1906-cı illərdə erməni quldurlarına qarşı mübarizə aparmışdır. 1906-cı ildə hökumət tərəfindən tutulub, sürgün edilməsinə qərar verilmişdir. Onun sürgün olunması barədə artıq hökm verilir. Lakin xəstə olduğundan Mir Haşım bəyin sürgünə göndərilməsi təxirə salınsa da, qubernatorun razılığı ilə sağalan kimi Şuşadan Stavropola sürgün edilir. Onun sürgün həyatı uzun çəkmir, artıq 1906-cı ilin ortalarında sürgündən azad olunan Mir Haşım bəy Şuşaya, sonra Bakıya qayıdır və ömrünün axırınadək Bakını özünə daimi məskən edir. Bakıya qayıtdıqdan sonra Əhməd Ağaoğlunun "İrşad" qəzetilə əməkdaşlıq edən Mir Haşım bəy bir müddət qəzetin müvəqqəti redaktoru olmuşdur. "İrşad"ın on beş nömrəsi onun redaktorluğu ilə çıxmışdır. ***"İrşad"dakı fəaliyyəti ilə Mir Haşım bəyin peşəkar jurnalistlik dövrü başlamışdır. Bundan sonra o, özü müstəqil bir qəzet yaratmaq fikrinə düşür və 1907-ci il aprelin 1-də "Tazə həyat" qəzetini nəşr etdirir. Bu qəzet tərəqqipərəst mövqe tutduğundan uzun müddət yaşaya bilmir, 1908-ci il oktyabrın 7-də qapanır. Sonra Haşım bəy "İttifaq" qəzetini nəşr etdirir. "İttifaq" da 1909-cu ildə bağlanmışdır. Həmin il o, "Səda" qəzetinin nəşrinə başlamışdır. Bu qəzet Haşım bəyin nəşr etdiyi mətbuat orqanları içərisində ən çox yayılanlardandır.***

1911-ci ildə Bakıdakı bir çox mühərrirlə bərabər Haşım bəy Vəzirov da həbs olunur. Sonra həbsdən çıxmağa müvəffəq olur. "**Səda**" qəzeti qapandıqdan sonra "**Kavkazets**" adlı rus qəzetini, "**Sədayi-vətən**", "**Sədayi-həqq**", **nəhayət** "**Sədayi-Qafqaz**" qəzetlərini nəşr etdirir. Bu axırıncı qəzet 180 nömrə çıxdıqdan sonra hökumət tərəfindən rəsmən qapanmışdır. Haşım bəy məşhur məzhəkə jurnalı olan "Məzəli"nin də mühərriri idi. Bu jurnal "Molla Nəsrəddin"dən sonra mətbuat tarixində ən görkəmli məzhəkə jurnalıdır. Burada günün siyasi həyatı kəskin qələm ilə əks olunur. "**Məzəli**" yalnız ümumi məsələlərdən yox, ölkənin daxili vəziyyətindən, şəhər həyatından da bəhs edirdi. Burada köhnəpərəstlər, avamlar, maarif və mədəniyyət düşmənləri, rüşvətxorlar, yalançı ruhanilər şiddətlə tənqid olunurdular. "**Məzəli**"də Əli Nəzmi, Məmməd Səid Ordubadi, Əliağa Vahid, Əbdülxalıq Cənnəti və başqa qüvvətli qələm sahibləri iştirak edirdilər. Haşım bəy Vəzirov həm də yaxşı yazıçı idi. O, "**Döymə qapımı, döyərlər qapını**", "**Evlənmək su içmək deyil**", "**Xan-xan**" adlı komediyalar yazmışdır. Bu komediyalarında köhnə adətlərə, ailə-məişət məsələlərində xəstə əhvali-ruhiyyələrə gülmüşdür. Onun "**Döymə qapımı, döyərlər qapını**" və "**Evlənmək su içmək deyil**" komediyaları Bakıda (1899, 1906, 1907) səhnəyə qoyulmuşdur. "**Döymə qapımı, döyərlər qapını**" komediyası "**Səda**" mətbəəsində (1922) kitabça şəklində çap olunmuşdur. 1913-cü ildə Haşım bəy şəhər bələdiyyə idarəsinin fəaliyyətindən bəhs edən "**Uprava xalanın qızı Tramvay xanımın toyu**" adlı birpərdəli məzhəkə də yazmışdır.

Haşım bəyin rus dilindən Azərbaycan türkcəsinə bir neçə tərcüməsi də vardır. Bunlara nümunə kimi Şekspirin məşhur əsəri - "**Otello**"nun tərcüməsini göstərmək olar. Əsər 1904-cü il avqustun 22-də Şuşada yerli həvəskarlar tərəfindən tamaşaya qoyulmuş, Otello rolunu H.Vəzirov özü oynamışdır.

Haşım bəy "İrşad"ın əməkdaşları ilə ixtilaf aparmışdır. Üzeyir bəy Hacıbəyov "İrşad"çının cavabı" məqaləsi ilə ona kəskin cavab vermişdir. Vəzirov 1914-1915-ci illərdə redaktoru olduğu "Məzəli" jurnalında Üzeyir bəy Hacıbəyovu dəfələrlə tənqid etmişdir. "Leyli və Məcnun" operası haqqında ilk rəyin müəllifidir. H.Vəzirov Molla Pənah Vaqifin şeir məcmuəsini də çap etdirmişdir (1908).

Haşım bəy Vəzirov 1916-cı ildə vəfat etmişdir.

Sumqayıt Kimya Sənaye Parkına əlavə 300 mln. manatdan çox investisiya yatırılacaq

İndiyədək Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən 5,3 mlrd. manat investisiya yatırılıb. 2022-ci ilin oktyabr ayınadək burada rezidentlər tərəfindən məhsul istehsalının həcmi 6.66 mlrd. manat, məhsul ixracının həcmi isə 2.44 mlrd. manat təşkil edib.

Bu barədə İqtisadiyyat naziri Mikayıl Cabbarov öz rəsmi Twitter hesabında yazıb.

Nazir bildirib ki, Sənaye Parkına əlavə 300 mln. manatdan çox investisiyanın yatırılması nəzərdə tutulur.

Gələn il 700 tibbi xidmətin xidmətlər zərfinə əlavə edilməsi gözlənilir

"Hazırda icbari tibbi sığorta üzrə xidmətlər zərfinə 2550 xidmət daxildir".

Bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin mətbuat xidmətinin rəhbəri Aynurə Əhmədova deyib.

O qeyd edib ki, növbəti il 700 tibbi xidmətin xidmətlər zərfinə əlavə edilməsi gözlənilir: "Bu xidmətlərə travmatoloji, kardioloji, transplantasiya əməliyyatlarının da daxil olması nəzərdə tutulur".

Azərbaycandan elektrik enerjisinin tədarükü Avropanın enerji müstəqilliyinə töhfə verəcək

Bu barədə Trend-ə Rumıniyanın "SMARTLINK COMMUNICATIONS" konsaltinq şirkətinin baş direktoru, qlobal analitik, məsləhətçi və tədqiqatçı Radu Maqdin deyib.

Onun sözlərinə görə, dekabrın 17-də Buxarestdə imzalanmış "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" Rumıniyanın da Gürcüstan, Macarıstan və digər Avropa ölkələri üçün tranzit ölkəyə çevrilə biləcəyini nəzərdə tutur. Bu yolla Rumıniya daha geniş regionda enerji təhlükəsizliyində mühüm rol oynaya bilər.

"Bu, Avropanın alternativ enerji mənbələrinə sərmayə qoyduğuna dair aydın siqnal göndərən kifayət qədər iddialı layihədir. Təxminən 1200 km-lik kabel rəqabət qabiliyyətini artırmaq və cəlbedici qiymətləri təmin etmək, enerji resursları üzərində son vaxtlara qədər hökm sürən siyasi inhisarı azaltmaq üçün əlverişli alternativdir. Rumıniya Prezidenti Klaus İohannis layihəni "vacib" və "iddialı" adlandırıb və mən bununla tam razıyam. Bu layihə Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsi və Qara dəniz regionunda, onun hüdudlarından kənarda əməkdaşlığın qurulmasında mühüm addımdır", - deyə Maqdin qeyd edib.

O əlavə edib ki, Rumıniya artıq regionda "yaşıl enerji"nin əsas istehsalçısıdır, lakin ölkə bu sahədə, o cümlədən, nüvə enerjisinin inkişafı sahəsində iddialı layihələr üzərində işləməyə davam edir.

"Yaşıl enerji", şübhəsiz ki, Rumıniya ilə əməkdaşlıq üçün bir fürsət sahəsidir. Rumıniya təkcə daxili istehlak üçün deyil, həm də Moldova Respublikası kimi digər ölkələrə sabit ixrac üçün bu cür resurslarda çox maraqlıdır", - deyə o bildirib.

Bakcell innovasiyaları dəstəkləyir

Şirkətin baş sponsorluğu ilə İllik İnnovasiya Sammiti keçirilib.

13 dekabr 2022-ci il tarixində Bakı Konqres Mərkəzində "PAŞA Holding"in təşkilatçılığı, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi və Bakcell şirkətinin baş sponsorluğu ilə 2-ci İllik İnnovasiya Sammiti baş tutub.

Tədbirin əsas məqsədi texnologiya sahəsində aparıcı şəxsləri və şirkətləri, eləcə də innovasiya yönümlü startapları Bakıda bir araya gətirmək, onlar üçün peşəkar müzakirələr, fikir və təcrübə mübadiləsi imkanı yaratmaq və beləcə ölkə və regionda innovasiya ekosisteminin formalaşmasına dəstək göstərməkdir.

Sammit zamanı aparıcı yerli və xarici şirkət nümayəndələrinin, dünyaca məşhur spikerlərin iştirakı ilə təqdimatlar, panel müzakirələri, çıxışlar, startapların təqdimatı və təlimlər baş tutub.

Tədbir çərçivəsində "Telekommunikasiya sənayesinin inkişafı üçün tərəfdaş ekosistemindən istifadə" mövzusunda keçirilən panel müzakirəsində Bakcell şirkətini marketinq rəhbəri Elçin Gülməmmədov təmsil edib. O, öz çıxışında Azərbaycanın "Speedtest Qlobal" İndeksində mobil internetin sürətinə görə regional lider olduğunu vurğulayıb: "Bakcell şirkətinin internet sürəti üzrə göstərdiyi nəticələr həmin reytinqdə ölkəmizin ümumi mövqeyinə böyük təsir göstərib. Bakcell dörd il ardıcıl olaraq Azərbaycanın ən sürətli mobil şəbəkəsi adına layiq görülüb.

Bu isə ölkəmizdə telekommunikasiya sahəsinin inkişafının parlaq nümunəsidir. Bakcell insanlara ən keyfiyyətli şəbəkə ilə xidmət göstərməkdən çox məmnundur.

Bütün bunlar isə sübut edir ki, ölkədə rəqəmsal xidmətlərin inkişafı üçün müvafiq infrastruktur mövcuddur".

Qeyd edək ki, Bakcell şirkəti artıq ikinci ildir ki "PAŞA Holding"in təşkilatçılığı ilə keçirilən İllik İnnovasiya Sammitinin baş sponsorudur.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500